EVDƏ QAL, SAĞLAM QAL!

**Prezidentə yazırlar: "Azərbaycanın inkişafı istiqamətində gördüyünüz işlər xalqımız tərəfindən minnətdarlıqla qarşılanır"**



Bax 4

**Müdafiə Nazirliyi: "Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni yeni yollar çəkməyə məcbur edir"**



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 097 (6062) 12 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Əli Əhmədov: "Heydər Əliyevin tarixi qayıdışı obyektiv tarixi zərurət və Azərbaycanın xilası idi"



İyunun 11-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşdan tərəqqiyə" adlı videokonfrans formatında tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra...

Bax 3

## Prezident İlham Əliyev Bakının Xətai rayonunda "Azərenerji"nin "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib




Bax 2

## Teymur Mustafayev vəfat etdi



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Axşam.az xəbər verir ki, Xalq artisti Teymur Mustafayev vəfat edib. Teymur əmi kimi tanınan xanəndə 82 yaşında dünyasını dəyişib. Qeyd edək ki, Teymur Mustafayev 1939-cu il aprelin 10-da Cəlilabadda anadan olub...

Bax 16

## FİFA-nın yeni reytinqi: Millimiz neçəncidir?

*FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Qurumun saytında yer alan məlumatda deyilir ki, Azərbaycan yığmasının mövqeyi dəyişməyib. Komandamız 1177 xalla 114-cü yerdə qalıb. Koronavirus pandemiyası səbəbindən yarışlar dayandığı üçün...*



Bax 16

## "Pravda.ru": Koronavirus Paşinyanın vədlərini puç edib

*Rusiyanın "pravda.ru" saytında MDB Ölkələri İnstitutunun Ermənistan filialının direktoru Aleksandr Markarovun Ermənistanda vəziyyət barədə müsahibəsi bu başlıq altında dərc edilib. AZƏRTAC həmin müsahibəni təqdim edir...*



Коронавирус развеял обещания Пашиняна

Путин с помощью «улицы» сместит Пашиняна?

Bax 5

## Ermənistan COVID-19 qarşısında necə diz çökdü?

*Ermənistan COVID-19 koronavirus infeksiyası ilə mübarizə edən və uduzan ölkələrin sırasına düşmək üçün bütün şanslarını qoruyub-saxlamaqdadır. Ölkədə yenidən yoluxma sayının artması yönündə partlayış müşahidə olunmaqdadır. Ağır vəziyyətdə olan pasientlərin...*



Bax 12

**Azərbaycanda koronavirusdan daha 6 nəfər vəfat edib**



Bax 5

**"AXCP getdikcə özünü daha çox alçaldır"**



Bax 14

**Azərbaycan bu ölkələrlə uçuşları bərpa etmək istəyir**



Bax 6

# Prezident İlham Əliyev Bakının Xətai rayonunda "Azərenerji"nin "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib



## Rəsmi xronika

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təbrik məktubu göndərib.

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.









***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, "Əhmədli" yarımstansiyası tamamilə yenidən qurulub, buradakı transformatorlar yeniləri ilə əvəzlənib, yarımstansiyanın bütün qurğuları müasir səviyyəyə çatdırılıb. Yenidənqurma işləri zamanı yarımstansiyanın idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial, iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev "Əhmədli" yarımstansiyasını işə saldı. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, müasir avadanlıq və qurğuların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köhnə transformatorun daha yeni transformatorlarla əvəzlənməsi yarımstansiyanın ümumi gücünü 166 mVA-dan 240 mVA-ya çatdırıb. Yarımstansiyada aparılan yenidənqurma işləri istehlakçıların enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə - onun fəaliyyəti dayandırılmadan həyata keçirilib.

Ümumilikdə, son iki ildə Prezident İlham Əliyevin tapşırığı ilə elektrik stansiyaları ilə yanaşı, ötürücü şəbəkədə də geniş yenidənqurma, təmir və bərpa işləri həyata keçirilir. Hazırlanan Reabilitasiya Proqramı çərçivəsində bu dövrdə 1 ədəd 500, 2 ədəd 330, 2 ədəd 220 və 10 ədəd 110 kV-luq yarımstansiya yenidən qurulub, 12 yarımstansiyada təmir-bərpa işləri həyata keçirilib.

Prezident İlham Əliyev: Burada böyük yaşayış massivləri yerləşir, bəs bu köhnə yarımstansiya bütün bu obyektləri necə qidalandırırdı?

Baba Rzayev: Bu, qidalandırmırdı.

Prezident İlham Əliyev: Yəni, fasilələrlə verilirdi?

Baba Rzayev: Bəli, çox pis idi, həmişə fasilə buradan olurdu. "Əhmədli" bir nömrəli qəza mənbəyi idi.

Prezident İlham Əliyev: Əhmədlidə, Günəşlidə qəzalar tez-tez olurdu. İndi qəzalar olmamalıdır.

Baba Rzayev: İnşallah, heç bir qəza olmayacaq.

Prezident İlham Əliyev: İstifadəyə verilən bu yarımstansiya 300 min əhalini əhatə edəcək. Həmçinin burada bir çox sənaye müəssisələri, ictimai binalar var. Ona görə bu yarımstansiyanın çox böyük əhəmiyyəti var.

Baba Rzayev: Cənab Prezident, "Ağ Şəhər" böyük bir layihədir. Orada 110 kilovoltluq 3 böyük yarımstansiya var, onlardan ikisi buradan qidalanır.

Prezident İlham Əliyev: Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb, həm generasiya gücləri artıb, eyni zamanda, siz itirilmiş gücləri bərpa edirsiniz. Yaxın zamanlarda Mingəçevirdəki İstilik Elektrik Stansiyasının da yenidənqurmadan sonra açılışını edəcəyik. Əslində, bu, yenidən tikilmiş 2400 meqavat gücündə elektrik stansiyasıdır və yarımstansiyaların tikintisi. Məhz buna görə bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycan dünya miqyasında ikinci yerdədir. Özü də bunu biz demirik, Davos Ümumdünya İqtisadi Forumu deyir. Yəni, biz bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq və işlər davam edir. Mənim rayonlara səfərlərim çərçivəsində də yeni yarımstansiyalar açılır. Bu yaxınlarda Tərtərdə, Ağcabədidə iki yarımstansiya açılıbdır. İndi "Əhmədli" yarımstansiyası, "8-ci Kilometr", "Xırdalan", "Buzovna", "Ağ şəhər".

Baba Rzayev: Cənab Prezident, Sizin birbaşa tapşırığınızla son bir ildə ancaq Abşeron regionunda 12 yarımstansiya, o cümlədən "Görədil" işə salınıb.

Prezident İlham Əliyev: Bizim bütün elektrik təsərrüfatımız tamamilə yenilənməli və ən yüksək müasir standartlara cavab verməlidir. Bir sıra layihələr başa çatıb, ancaq hələ görüləsi işlər çoxdur, onları da ardıcıllıqla icra edəcəyik.

Baba Rzayev: Çox sağ olun, cənab Prezident. Sizi əmin edirəm ki, energetika sahəsinin inkişafı ilə bağlı müəyyənləşdirdiyiniz strategiyanı, qarşıya qoyduğunuz vəzifələri energetiklərimiz uğurla yerinə yetirəcəklər. Sizə təşəkkür edirik.

Cənab Prezident, harada ki, ərazi imkan verir, 110, 220, 330 kilovoltluq yarımstansiyaları ən müasir texnologiyalar əsasında bu cür açıq paylayıcı qurğularla təmin edirik. Ancaq "Böyükşor" yarımstansiyasını qapalı "GİS"lə inşa etmişik. Özü də bu yarımstansiyaların gücü 80 və 240 meqavoltamperdir.

X X X

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən ölkəmizdə elektrik enerjisi təsərrüfatının yenidən qurulması, bu sahədə ən son innovativ həllərin tətbiqi və nəticə etibarilə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı istiqamətində böyük işlər görülüb. Həyata keçirilən işlərin tərkib hissəsi kimi çox sayda mövcud yarımstansiya müasir səviyyədə yenidən qurulub. Onlardan biri də 110/35/10 kV-luq "Əhmədli" yarımstansiyasıdır.

# Əli Əhmədov: "Heydər Əliyevin tarixi qayıdışı obyektiv tarixi zərurət və Azərbaycanın xilası idi"

*YAP İcra Katibliyində "Qurtuluşdan tərəqqiyə" adlı videokonfrans formatında tədbir keçirilib*





***İyunun 11-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşdan tərəqqiyə" adlı videokonfrans formatında tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 15 İyun - Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Əli Əhmədov bildirib ki, XX əsrin sonlarında Azərbaycanın tarixində iki mühüm tarixi hadisə baş verdi. Bunların birincisi, 1991-ci ildə Azərbaycan xalqının dövlət müstəqilliyinə qovuşması, ikincisi isə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyun ayında möhtəşəm tarixi qayıdışı hesab olunmalıdır. Onun fikrincə, Ulu Öndər Heydər Əliyevin tarixi qayıdışı obyektiv tarixi zərurət və Azərbaycanın xilası şansı idi.***

YAP Sədrinin müavini qeyd edib ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyinə qovuşsa da, o zamankı hakimiyyət ölkəni inkişafa deyil, tənəzzülə sürüklədi. 1992-ci ildə hakimiyyəti ələ alan AXC-Müsavat cütlüyü isə Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu. Həmin illərdə respublikada sosial-iqtisadi, siyasi böhran hökm sürürdü. İnfilyasiya 1600 səviyyəsində idi, insanlar çörəklə sınağa çəkilirdi. Belə bir vəziyyətdə Ermənistan tərəfindən torpaqlarımız işğal olunurdu. 1993-cü ildə baş verən Gəncə qiyamı isə "böyük partlayış" oldu. Bu hadisə nəticəsində ölkədə vəziyyət daha da pisləşdi, vətəndaş müharibəsi təhlükəsi ilə üzləşdik.

Əli Əhmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin qayıdışı, Milli Qurtuluş Günü müasir Azərbaycan tarixinin möhtəşəm dönüş nöqtəsidir. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və bu günə səbəb olan Ümummilli liderimiz Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil: "Şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq. O Azərbaycan indi bizim üçün dəyərli olan, bizim hər birimizin qürur duyduğumuz Azərbaycandan fərqlənmiş olacaqdı".

YAP Sədrinin müavini qeyd edib ki, xalqımız tərəfindən 15 İyun - Milli Qurtuluş Günü müasir tariximizin ən önəmli hadisəsi kimi qeyd edilir, dəyərləndirilir. Xalqımız Heydər Əliyevin tarixi qayıdışını Azərbaycanın xilası şansı kimi qiymətləndirir. Bu, onunla əlaqədardır ki, insanlar bugünkü həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü ilə, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər. Çünki Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı Qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır.

YAP Sədrinin müavini deyib ki, qurtuluş və Heydər Əliyevin möhtəşəm qayıdışı Azərbaycan xalqının istəyinin və iradəsinin ifadəsi kimi qəbul olunur: "Ölkəmizin tarixinin ən həssas dövründə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın mövcudluğunun, müstəqilliyinin və gələcək inkişafının yeganə və həlledici səbəbi kimi qavranılır. Qurtuluşun digər mənası Azərbaycanın siyasi təlatümlərdən xilas edilməsi ilə bağlıdır. O dövrü xatırlayanlar bunun nə demək olduğunu aydın şəkildə təsəvvür edirlər. Qurtuluş, eyni zamanda, iqtisadi tənəzzülün qarşısını aldı. Bu da Heydər Əliyevin böyük qayıdışını əks etdirən çox vacib məqamlardan biridir. Eyni zamanda, bir məqam da odur ki, qurtuluş Azərbaycanı o zaman düçar olduğu beynəlxalq təcriddən xilas etdi. Ümumiləşmə apararaq demək olar ki, Qurtuluş məfkurəsi Azərbaycanın mənəvi böhrandan, mənəvi aşınmadan xilas olması mənasını daşıyır. Qayıdış, əslində, Azərbaycanı bütün istiqamətlər üzrə bürümüş böhrandan xilas etdi".

Müstəqilliyin əvvəllərində Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini xatırladan Əli Əhmədov Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib. Baş Nazirin müavini qeyd edib ki, Ulu Öndərin işləyib hazırladığı müasir müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub.

Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan Əli Əhmədov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, 2003-cü ildən sonra da Azərbaycanın dövlət siyasəti Heydər Əliyev siyasəti, Heydər Əliyev ideyaları əsasında köklənib.

"Qurtuluşdan başlanan tarixi yol bu gün də davam etdirilir. Ölkəmizin bugünkü tərəqqisi, Prezident İlham Əliyevin siyasəti qurtuluşdan qaynaqlanır və ondan güc alır. Qurtuluşdan danışarkən bugünkü reallıqları göz önünə gətirmək kifayət edir ki, ölkəmiz nə qədər nailiyyətlər qazanıb. Beləliklə, qurtuluş qısa müddətdə ölkəmizin böyük inkişaf mərhələsinin əsası olub və bundan sonrakı dövr üçün də etibarlı əsaslar yaradıb", - deyə YAP Sədrinin müavini qeyd edib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov deyib ki, 15 İyun - Milli Qurtuluş Günü, sadəcə, təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 İyun əsl qurtuluş tarixi, Azərbaycan xalqının ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əlirza oğlu Əliyevdir. E.İbrahimov bildirib ki, müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr olub. Tale elə gətirib ki, 1991-1993-cü illər, müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrlərdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməK, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. "Belə bir məqamda isə yalnız bir çıxış yolu var idi. Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatlıq keçirən ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Əlbəttə ki, sağlam düşüncəli insanlar, ziyalılar AXC-"Müsavat" hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız Heydər Əliyev kimi lider xilas edə bilər. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Bakıya qayıdaraq Azərbaycan parlamentinin Sədri seçildiyi gün - 15 İyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki 15 İyun olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı", - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

E.İbrahimov deyib ki, Ulu Öndər Heydər Əliyevin bu günə hesablanmış fəaliyyəti hər birimizin gözü qarşısında baş verir. Yaxın tariximizə nəzər salsaq, bu tarixə münasibətin özünü də aydın şəkildə dərk edirik. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Məhz ölkəmizin inkişaf strategiyası Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib və Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

Əlbəttə ki, qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Tədbirdə YAP Sədrinin müavini Əli Həsənov da çıxış edərək Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışının tarixi əhəmiyyətindən danışıb. Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini bölüşən Əli Həsənov həmçinin Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlardan da geniş bəhs edib. Tədbirdə həmçinin, Milli Məclisin deputatları Pərvin Kərimzadə, Ramil Həsən, Cavid Osmanov və YAP Balakən rayon təşkilatının sədri Azad Balayev çıxış edərək 15 İyun-Milli Qurtuluş Gününün tarixi əhəmiyyəti haqqında fikirlərini bildiriblər.

**Ceyhun Rasimoğlu**

## Müdafiə Nazirliyi: "Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni yeni yollar çəkməyə məcbur edir"



Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb. AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı bəyanatda deyilir.

Bəyanatda qeyd olunur ki, strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir.

## Ermənistan ordusunun əsgəri xidmət yoldaşları tərəfindən döyülüb

Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində növbəti "dedovşina" faktı üzə çıxıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, 6-cı dağ atıcı alayın hərbi qulluqçusu Vazgen Manukyan xidmət yoldaşları tərəfindən döyülüb. Tibb məntəqəsində ilkin yadım göstərildikdən sonra V.Manukyan xidmət yerinə qaytarılıb. Faktla bağlı hüquq-mühafizə orqanlarına məlumat verilmədən hadisə ört-basdır edilib.

# Prezidentə yazırlar: “Azərbaycanın inkişafı istiqamətində gördüyünüz işlər xalqımız tərəfindən minnətdarlıqla qarşılanır”

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Şəmkir rayonunun Bayramlı kəndindən Mətanət Quliyeva yazır: “Möhtərəm cənab Prezident, həyatımı dəyişən xəbəri və o günü xatırladıqca ilahi ədalətin var olduğuna bütün ruhumla təkrar-təkrar inanıram. Həyat qayğılarımın hökm sürdüyü və ömrümün eniş dövründə, üstəlik, bütün bunlardan əlavə, sağlamlığımın mənimlə savaşa qalxdığı bir vaxtda bir xəbər oxudum: Prezident mükafatçısı olmuşam. Həmin anı və o anın yaşatdığı hissləri ifadə etməyə nə mənim, nə də qələmimin gücü çatar. Təkcə onu deyim ki, o xəbər yaralarıma məlhəm, yorğunluqdan bükülən dizlərimə güc oldu, məni həyata bağladı, mübarizəyə səslədi. Bütün bunlara görə Sizə minnətdaram, cənab Prezident! Əlilliyi olan şəxslər üçün yaratdığınız çoxlu imkanlar və bu istiqamətdə aparılan işlər bir daha imkan yaradır ki, bu qəbildən olan hər bir şəxs cəmiyyətdə öz yerini tutsun. Ürəklə deyə bilərəm ki, bu gün mənim kimi gənclərin hədəflərinə doğru addımlaması üçün heç bir əngəl yoxdur. Bizim Sizə, Sizin qayğınıza hər zaman ehtiyacımız var”.



Xocalı rayonundan məcburi köçkün Vaqif Behbudov: “Hörmətli cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu müasir Azərbaycanımız gündən-günə inkişaf edir. Bu inkişaf məhz Sizin zəhmətinizin, siyasi iradənizin sayəsində gerçəkləşir. Mən şəhid oğluyam, atamın şəhid olmasından üç ay sonra dünyaya gəlmişəm. Atamın adını mənə qoyublar və bununla fəxr edirəm. Həm də ona görə fəxr edirəm ki, dünyanın heç bir ölkəsində şəhid ailəsinə bu qədər diqqət və qayğı göstərilmir. Bu qayğını Sizin yürütdüyünüz uğurlu sosial siyasətin məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Şəhid ailələrinin hər birinə göstərilən diqqət və qayğı bizlərdə qürur, fərəh hissi yaradır. Siz çıxışlarınızda hər bir şəhidin və onun ailəsinin Azərbaycan dövləti və xalqı üçün son dərəcə dəyərli olduğunu qeyd edirsiniz. Sizin şəhid ailələri ilə görüşləriniz bu qayğının tükənməz olduğunu göstərir. Buna görə də bizim - şəhid ailələrinin yaşayışı ildən-ilə yaxşılaşır. Biz şəhid ailələrinin problemlərinin aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən məmnunluq hissi duyuruq və əhatə olunduğumuz qayğıya görə Sizə minnətdarlığımızı bildiririk”.

Sumqayıt şəhərindən Rasim Məmmədov və Səidə Məmmədova yazırlar: “Zati-aliləri cənab Prezident, Sizin rəhbərliyinizlə korrupsiya hallarına qarşı həyata keçirilən sərt tədbirlər bizi çox sevindirir. Bu işləri diqqətlə seyr edir, ulu öndər Heydər Əliyevin vaxtında olduğu kimi, sağlam ab-havanın yarandığını duyuruq. Əsas isə odur ki, Siz bu yolda qətiyyətli və dönməzsiniz, eynilə atanız kimi... Sizin bu iradəniz bir çoxlarının yuxusuna haram qatıb. İstər xaricdə, istərsə də daxildəki düşmənlərimiz Azərbaycanın bu uğurlarını həzm edə bilmirlər, edə də bilməzlər. Çünki Sizin rəhbərliyinizlə qazanılan uğurlar onların boğazına sanki bir sümük kimi tıxanıb. Bilin ki, bütün xalq Sizə inanır. Bu xalq ümummilli liderimiz Heydər Əliyevin bir kəlməsi ilə 1994-1995-ci illərdə Azadlıq meydanına toplaşıb onunla bir olduğunu bütün dünyaya göstərdiyi kimi, Sizin də bir kəlmənizlə meydana çıxıb arxanızca getməyə hər zaman hazırdır. Allah Sizi qorusun!”.

Bakının Nərimanov rayonundan Füzuli Hacıyev: “Çox hörmətli cənab Prezident, mən Sizin “Beşbarmaq dağı” Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında 2020-ci il 8 iyun tarixli Sərəncamınızı oxuyarkən qəlbim çox böyük fərəh və qürur hissi ilə doldu. Çünki nəinki Qafqazda və Azərbaycanda, habelə bütün dünyada çox nadir tarixi mədəniyyət nümunəsinə yeni həyat vermək ancaq Sizin kimi torpağını, tarixini sevən böyük şəxsiyyətlərə qismət olur. Möhtərəm cənab Prezident, Beşbarmaq dağı çox böyük bir tariximizin möhtəşəm bir parçasıdır. Bu müqəddəs məkanda Musa və Xızır peyğəmbərlərin görüşdüyü yer, eramızın əvvəllərində tikilmiş Beşbarmaq səddi və saymaqla bitməyən digər tarixi abidələr yatır. Sizə çox böyük minnətdarlığımı bildirirəm, əziz Prezidentim! Tarixə münasibətin möhtəşəm nümunəsi budur”.

Mingəçevir şəhərindən Əvəz Haqverdiyev: “Möhtərəm Prezident, ümummilli liderimiz Heydər Əliyevin daimi diqqət və qayğısı ilə inkişaf edən Mingəçevir bu gün Sizin həyata keçirdiyiniz siyasət nəticəsində özünün yüksəliş dövrünü yaşayır. Ölkə energetikasının flaqmanı olan “Azərbaycan” İES-in yenidən qurulması barədə verdiyiniz tapşırıq uğurla yerinə yetirilir. Artıq əsaslı təmir və bərpa işləri yekunlaşmaq üzrədir. “Azərbaycan” İES-in indiki görkəmi, orada aparılan işlər təqdirəlayiqdir. Aparılan bu işlərə görə, cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun!”.

Tərtər rayonundan Emin Pənahov: “Cənab Prezident, rayonumuzda tərtərli gənclərin və idmançıların uzun illərdən bəri həsrətində olduğu möhtəşəm Olimpiya İdman Kompleksinin tikilib istifadəyə verilməsi bizə sonsuz sevinc hissləri yaşatdı. Bu Olimpiya İdman Kompleksi tərtərli gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmana marağının artmasında mühüm rol oynayacaq. Kompleksdə olan müxtəlif idman yarışlarının keçirilməsi üçün universal zal, üzgüçülük hovuzu, sauna, güləş, boks, basketbol və trenajor zalları, tennis kortu gənclərimizin ölkə daxilində və beynəlxalq arenada keçirilən idman yarışlarında uğur qazanmalarına zəmin yaradır. Biz idman yarışlarına ev sahibliyi də edəcəyik, idmanın kütləviliyini təmin edərək, gənclərimizin fiziki və mənəvi sağlamlığını qoruyacağıq. Cənab Prezident, cəbhə bölgəsində yaşayan gənclərə göstərdiyiniz diqqət və qayğıya görə Tərtər rayonunun çoxsaylı gəncləri və idmançıları adından Sizə minnətdarlığımızı bildiririk. Gənclərimiz bütün sahələrdə Sizin diqqət və qayğınızı hiss edir və Sizi dəstəkləyirlər. Tanrı Sizi qorusun!”.

Bakı şəhərinin Xəzər rayonundan Səxavət Məcnunov: “Hörmətli cənab Prezident, Azərbaycanın gündən-günə inkişaf etməsi, dünya dövlətləri arasında nüfuzunun artması istiqamətində gördüyünüz işlər, apardığınız daxili və xarici siyasət, habelə ölkədaxili genişmiqyaslı islahatlar xalqımız tərəfindən minnətdarlıqla qarşılanır. Dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Sizin apardığınız tədbirlərin nəticəsində ölkəmizdə epidemiyanın geniş yayılmasının qarşısının alınması ilə bağlı verdiyiniz tapşırıqlar ölkə əhalisi tərəfindən müsbət qarşılanır və layiqincə yerinə yetirilir. Görülən bütün bu işlər Sizin tərəfinizdən vətəndaşlara göstərilən diqqət və qayğıdan irəli gəlir. Bir hərbçi olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə tezliklə torpaqlarımız düşmən tapdağından azad olacaq və dünyanı cənginə alan bu bəladan da tezliklə qurtulacağıq. Sizin sayənizdə Böyük Vətən müharibəsi iştirakçılarının ailələrinə verilən birdəfəlik müavinətə görə Sizə təşəkkürümüzü bildiririk. Ölkə vətəndaşlarının sağlamlığını, rifahını, ölkəmizin güclü iqtisadiyyata, ordumuzun dövlətlər arasında nüfuzlu yerə yüksəlməsində gördüyünüz işlərə görə Xəzər rayonunun sakinləri, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı adından Sizə və ailənizə xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Biz həmişə Sizinləyik!”.

Mingəçevir şəhərindən Humay Baxışova, Tural Kərimov və Kamal Nəcəfli yazırlar: “Hörmətli cənab Prezident, Sizin tapşırıq və tövsiyələrinizə uyğun olaraq “Azərbaycan” İstilik Elektrik Stansiyasında aparılan yenidənqurma işləri uğurla davam etdirilir. Sizin rəhbərliyinizlə ölkəmizdə energetika sənayesi sürətlə inkişaf edərək, yeni mərhələyə qədəm qoyub. Azərbaycan enerjini ixrac edən ölkəyə çevrilib. Dövlətimizin davamlı inkişafının göstəricisi olaraq görülən işlər biz gəncləri sevindirir və qürurlandırır. Cənab Prezident, Mingəçevir gəncləri gördüyünüz misilsiz işləri bütünlüklə dəstəkləyirlər. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirir, uğurla irəlilədiyiniz yolda yeni müvəffəqiyyətlər arzulayırıq. Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, işlərinizdə nailiyyətlər diləyirik”.

Sabirabad rayonunun Xəlfəli kəndindən Yavər Şükürov: “Azərbaycan xalqının sevimli Prezidenti, cənab Ali Baş Komandan, bu ağır dövrdə Sizin vaxtında atdığınız addımlar, xalqın sağlamlığının qorunmasına yönəlmiş siyasət sayəsində koronavirus bəlasının caynağından tezliklə xilas olacağımıza böyük inam bəsləyirik. Hər bir işinizə görə şəxsən öz adımdan və ailəm adından Sizə minnətdarlığımızı bildirirəm. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq Siz daim xalqın yanındasınız. Bəzi şəxslər özlərini xalqa canıyanan kimi göstərməyə çalışsalar da, əslində, xalqımız onlardan heç vaxt bir xeyir görməyib. Sizi ona görə çox istəyirik ki, sözünüzlə əməliniz vəhdət təşkil edir. Fəaliyyətiniz əhalinin qayğı ilə əhatə olunmasında öz əksini tapır. Allah Sizi və ailənizi, bütün yaxınlarınızı qorusun. Biz Sizinlə fəxr edirik və hər zaman yanınızdayıq”.

# “Pravda.ru”: Koronavirus Paşinyanın vədlərini puç edib

***Rusiyanın “pravda.ru” saytında MDB Ölkələri İnstitutunun Ermənistan filialının direktoru Aleksandr Markarovun Ermənistanda vəziyyət barədə müsahibəsi bu başlıq altında dərc edilib. AZƏRTAC həmin müsahibəni təqdim edir.***

X X X


pravda.ru МИР ПОЛИТИКА ЭКОНОМИКА НЕДВИЖИМОСТЬ ТУРИЗМ РОССИЯ ПРЯМОЙ ЭФИР

Учащиеся МГУ приглашаются на подработку

С пенсионеров хотели взыскать более 300 млрд руб. долгов

Государство поддержало сотни российских информагентств

Ядерное сдерживание России: новая Концепция и свежий пример её необходимости

В Турции прогнозируют загрузку отелей в июле на 70%

Автор ЛЮБОВЬ СТЕПУШОВА 10.06.2020 17:45

Коронавирус развеял обещания Пашиняна

Что сейчас происходит в Армении? Почему множатся внешние и внутренние противоречия и скандалы? Происходили ли какие-то положительные изменения в республике до всеобщего коронавирусного кризиса? Или все многочисленные обещания и огромные планы пришедшего к власти на революционной волне премьер-министра Никола Пашиняна провалились? Считают ли люди его популистом или еще на что-то надеются? На что и почему? Обо всем этом и многом другом в прямом эфире видеостудии Pravda. Ru рассказал директор армянского филиала Института стран СНГ Александр Маркаров.

Путин с помощью «улицы» сместит Пашиняна?

Как киберспорт входит в обычный досуг человека

Как теннис выходит из карантина

Новости

14:37 МГУ запускает программу трудоустройства для студентов

Paşinyanın planları puç olub

-Aleksandr, Ermənistanın indiki hakimiyyəti praktiki olaraq yaxşılığa doğru heç bir dəyişiklik etməyib. Buna baxmayaraq, əhali Nikol Paşinyanı populist hesab etmirmi? Yoxsa adi Ermənistan vətəndaşı öz həyatında (əlbəttə, koronavirusa qədər) müəyyən yaxşılaşma hiss edib?

-Bu sualın cavabı kimdən soruşmaqdan və nəyi populizm hesab etməkdən asılıdır. Yəqin ki, əhalinin müəyyən kateqoriyası bəzi yaxşılaşma hiss edə bilib. Söhbət kiçik və orta biznesin bir hissəsi barədə gedə bilər, onlara daha artıq fəaliyyət azadlığı verilib, hərçənd indiyə qədər vergidən başqa bu azadlıqları kimin və nəyin məhdudlaşdırması aydın deyil. Əhalinin bir hissəsinin əməkhaqlarına əlavələr edilib. Bəziləri üçün bu artım ciddi, digərləri üçün cüzi ola bilər.

Lakin yəqin ki, əsas məsələ əhalinin bütövlükdə iqtisadi və sosial inkişaf perspektivlərini necə təsəvvür etməsindən və indi istiqaməti düzgün və inkişaf dinamikasını yetərli hesab edib-etməməsindən ibarətdir.

Hər halda əvvəllər təqdim edilən rəsmi statistika və sosiologiya göstərirdi ki, əhalinin əksəriyyətinin fikrincə, cəmiyyət düzgün istiqamətdə hərəkət edir. Aydındır ki, koronavirus və onun doğurduğu iqtisadi dəyişikliklər ölkədə iqtisadi və sosial şəraitə təsir göstərməyə bilməz. Həm də bu təsir koronavirusdan əvvəl mövcud olan azacıq müsbət məqamlarla müqayisədə daha əhəmiyyətli ola bilər.

İri biznes problemləri qalır. Söhbət investisiyaların artırılması, ixracın artırılması imkanları və bütövlükdə inkişaf barədə gedirdi. Lakin vəziyyət dəyişmədi. İndi isə əsas məsələ yəqin ki, mövcud mövqeləri qoruyub saxlamaqdır, çünki münaqişə və məhkəmə hakimiyyətinin anlaşılmaz fəaliyyəti ilə bağlı qeyri-müəyyənlik şəraitində iri investisiyalar ola bilməz.

Buna görə sabitliyi yalnız yuxuda görmək olar. Təbii ki, biznes bu vəziyyəti görmək istəməzdi. Buna müvafiq olaraq, heç olmasa müəyyən qədər sabitlik və müəyyənlik olmadıqda, ciddi iqtisadi inkişaf barədə danışmaq çətindir, amma xalq buna çalışırdı. Haradansa peyda olmuş koronavirus və yarasa hətta ehtimal edilən perspektivləri də öz qanadları altına aldı.

-Paşinyanın seçkiqabağı vədlərindən biri Ermənistan diasporundan investisiyalar cəlb etmək barədə idi. Diaspor o qədər də bədxərclik etmədi.

-Məsələ də ondadır ki, bu investisiyalar yalnız qismən həyata keçirildi. Gözlənilən həcmə heç yaxın da gəlmədilər. Hələ 2018-ci ilə qədər başlanmış layihələr vardı, onlar başa çatdırıldı və müəyyən yeni iş yerlərinin açılması ilə nəticələndi. Bu barədə daim çox böyük bir nailiyyət kimi danışırlar.Əslində isə həmin layihələrin çoxu sadəcə kölgə iqtisadiyyatı vəziyyətindən çıxarıldı.

Diasporun yuxudan oyanacağı, Ermənistana üz tutacağı, milyonlarla dolların üçüncü respublikaya axacağı barədə gözləntilər doğrulmadı. Buna oxşar heç bir hadisə baş vermədi. Bu barədə böyük etirazlar yoxdur. Sadəcə biznesmen hər halda rasional adamdır, buna görə də prosesin başa çatmasını gözləyir, axı, necə deyərlər, bərədə atları dəyişməzlər. Hər halda bərəni keçmək lazımdır. Çayı üzüb keçəndən sonra prosesin uzunmüddətli olacağına ümid bəsləmək olar. Bərədən keçmə prosesində isə qarşı sahilə çatıb-çatmayacağınız barədə müəyyənlik yoxdur.

İnsanların peşmançılığı artır

-Belə çıxır ki, ermənilər hələ Paşinyana görə çox peşman olmayıblar, hələ ümidləri qalır. Hökumətin hansısa konkret planları, oriyentirləri, yol xəritələri varmı?

-Bəli, özü demişkən, “100 gün” və “500 gün” planları vardı. Yeni hətta konkret müddətlər göstərilmişdi, lakin həmin müddətlər artıq keçib. Buna görə də ümidsizliyə qapılmış insanların sayı artır və çox güman ki, əgər bundan sonra da nəticə olmasa, vaxt keçdikcə daha da artacaq. Müəyyən müddət ərzində çox böyük planlar barədə danışmaq olar, lakin əgər bunlar yalnız gurultulu fraza kimi qalsa, konkret nəticələr olmasa məyusluq yaranır.

Məyusluq olanda isə aydındır ki, insanlar düşdüyü vəziyyətdən çıxmaq üçün yeni xilaskar axtaracaqlar. Yaxın zamanda ÜDM artımını təmin edə biləcək real planlar yoxdur və bu vəziyyətdə ola da bilməz. Deməli, ümidsizliyin artması ehtimalı çoxalır.

İnsanların çoxu Paşinyana böyük ümid bəsləyirdi. Əgər o, heç bir əhəmiyyətli iş görə bilməsə ola bilsin ki, məyusluq yaranmayacaq, insanlar sadəcə siyasi və ya hər hansı başqa həyata marağı ümumiyyətlə itirəcəklər. Nələr baş verməsi heç kəsin vecinə olmayacaq. Bu isə ən dəhşətli vəziyyətdir.

# Sevinc Fətəliyeva: “Azərbaycan koronavirus pandemiyası ilə mübarizəyə böyük töhfələr verir”



“Azərbaycan dövləti koronavirus pandemiyasına qarşı mübarizədə bütün imkanlarını səfərbər edib. Dövlət vətəndaşların sağlamlığının qorunması üçün maksimum tədbirlər həyata keçirir. Görülən işlərin tam nəticə verməsi üçün vətəndaşlar öz məsuliyyətini dərk etməli və qaydalara ımıl etməlidirlər”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Sevinc Fətəliyeva bildirib ki, iyunun 9-da yeni modul tipli xəstəxanaların açılışında Prezident İlham Əliyev qeyd edib ki, mənim üçün insanların sağlamlığı tərəddüdsüz olaraq birinci yerdədir. Dövlət başçısı vətəndaşların dövlətin həyata keçirdiyi tədbirləri dəstəklədiyini qeyd edərək bir daha insanları məsuliyyətli olmağa, nizam-intizama çağırıb. Çünki, insanların böyük əksəriyyəti sosial məsuliyyətini dərk etsələr də, müəyyən bir qism çağırışlara əməl etmir ki, bud a virusun yayılmasına səbəb olur.

Millət vəkili təəssüflə qeyd edib ki, infeksiyaının geniş yayılmasına qarşı tətbiq olunan karantin rejiminin yumşaldılması ilə paralel şəkildə COVİD-19-a yoluxanların sayında artma müşahidə edilir. Bunun səbəbi bəzi insanlar arasında arxayınlıq yaranması, onların qoruyucu vasitələrdən, o cümlədən tibbi maskalardan istifadə etməmələri ilə bağlıdır. Halbuki, indiyə qədər Azərbaycanın bu istiqamətəd həyata keçirdiyi tədbirlər dünya miqyasında təqdir edilir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən Azərbaycanın pandemiya ilə mübarizəsi yüksək qiymətləndirilir.

“Yeri gəlmişkən, Prezident İlham Əliyev çıxışında pandemiya ilə dünya ölkələrin mübarizəsi və ölkəmizin bu sahədə əməkdaşlığı haqqında fikirlərini bildirib. Dövlətimizin başçısı qeyd edib ki, səhiyyə sistemi həmişə nümunə göstərilən inkişaf etmiş bır sıra ölkələrdə ölənlərin sayı bizdə virusa yoluxanların sayından çoxdur. Hansı ki, onların əhalisi Azərbaycanın əhalisinin sayı ilə təminən bərabərdir. Onu da xüsusi vurğulamaq lazımdır ki, pandemiya ilə mübarizə çərçivəsində Azərbaycan beynəlxalq miqyasda öz töhfələrini verir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşlərinin keçirilməsi də buna sübutdur. Avropa İttifaqı isə ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə qoşulub. Bu prosesdə Azərbaycan dünyada birləşdirici rol oynadı. Təsadüfi deyil ki, hər iki tədbirin keçirilməsinə görə büynəlxalq miqyasda Azərbaycanın rolu çox yüksək qiymətləndirildi. Digər vacib məqam isə Azərbaycanın bir sıra ölkələrə yardım göstərməsidir. Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan indiyə qədər fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərib. O ölkələr ki, buna onların ehtiyacı var. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. Həmin 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Bundan əlavə, Azərbaycan fərdi qaydada üç beynəlxalq təşkilata ianə verib. Beləliklə, dövlət başçısının qeyd etdiyi kimi, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Həyata keçirilən tədbirlər onu göstərir ki, Azərbaycan beynəlxalq miqyasda koronavirus pandemiyası ilə mübarizəyə böyük töhfələr verir”-deyə, S.Fətəliyeva vurğulayıb.

# “Hraparak”: “Paşinyan Kanadada 3 milyon dollara ev alıb”



“Qagik Tsarukyanın məşhur çıxışından sonra hakimiyyətlə “Çiçəklənən Ermənistan” partiyası arasındakı “atışma” son vermir. Sonuncunun bəyanatı “Mənm addımım” nümayəndələrini ruhi sarsıntıya salıb”. SİA xəbər verir ki, bu barədə Ermənistanın “Hraparak” qəzeti yazır. Erməni nəşrinin yazdığına görə, Tsaurkyan telefonla baş nazir Nikol Paşinyanla danışıb və ikinci brincini istənilən addım atacaqları halda məhv edəcəyini bildirib. Lakin “Çiçəklənən Ermənistan” təmsilçiləri geri çəkilmirlər, onlar hakimiyyətə əks-zərbələr vurmağa davam edirlər. “Çiçəklənən Ermənistan” partiyasının deputatı Artyom Tsarukyan (Qagik Tsarukyanın qohumu) bu ərəfələrdə korrpupsiya işini ifşa edib. Belə ki, o Paşinyanın Kanadada bacısının cangüdəninin adına 3 milyon dollara ev aldığını bildirib. Ona sual veriləndə ki, o bunları hansı faktlar əsasında iddia edir, deputat faktların olmadığını deyib və onun fikri Nikol Paşinyanın “havadan asılı qalan” sevimli xəbərlər məntiqinə sığır”, “Hraparak” yazır.

***Rövşən***

# Azərbaycanda koronavirusdan daha 6 nəfər vəfat edib




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 352 yoluxma faktı qeydə alınıb, 210 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 8882 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 4930 nəfər müalicə olunaraq sağalıb, 108 nəfər vəfat edib. Aktiv xəstə sayı 3844 nəfərdir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 362 min 654 test aparılıb. Bugünkü test sayı isə 6622-dir.

# Şərq Tərəfdaşlığı üzrə Xarici İşlər nazirlərinin videokonfrans formatında görüşü olub



***Şərq Tərəfdaşlığı üzrə Xarici İşlər nazirlərinin videokonfrans formatında görüşü olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov görüşdə iştirak edib.***

Elmar Məmmədyarov çıxışında bu görüşün dünyanın misilsiz çağırışlarla üzləşdiyi dövrdə keçirildiyini bildirərək deyib: "Öldürücü pandemiya nəticəsində vəfat edənlərin ailələrinə dərin hüznlə baş sağlığı vermək istərdim. Davam edən böhran dövründə bu konfrans vaxtında keçirilən önəmli bir tədbirdir. Biz pandemiyaya ölkə səviyyəsində qəti tədbirlərlə cavab veririk. Ciddi karantin tədbirləri 3 şəhərimizdə 3 yeni xəstəxananın istifadəyə verilməsi və əlavə 7 modul-tipli xəstəxanaların tikilməsi də daxil olmaqla, səhiyyə sisteminin gücləndirilməsinə əhəmiyyətli dövlət resurslarının yönəldilməsi tədbirləri ilə həyata keçirilib. Pandemiyanın və neft qiymətlərinin kəskin aşağı düşməsinin iqtisadi və sosial təsirlərinin zəiflədilməsi məqsədilə hökumət ölkə ÜDM-sinin 4,3 faizi həcmində Müfəssəl İqtisadi Yardım Paketi qəbul edib. Gəlirləri dəstəkləyən tədbirlər ölkə əhalisinin təxminən yarısını - 4,8 milyon vətəndaşı əhatə edib. Özəl şirkətlər QHT-lər və sadə vətəndaşlar könüllü ianələr vasitəsi ilə hökumətin səylərinə qoşulub və bu həmrəylik ürəkaçandır. Biz, həmçinin pandemiyanın alovlandığı dövrdə təxirəsalınmaz cavab tədbirlərinin dəstəklənməsi məqsədilə Aİ-nin Azərbaycana yardımını qiymətləndiririk. Böhranın mahiyyəti və miqyası müqayisə olunmazdır. İstər güclü olsun, istər zəif, iqtisadiyyatlar bir-birləri ilə bağlıdır və təsirlərə məruz qalmışdır. Bu vəziyyət tərəfdaşları bir yerə yığışıb, əməkdaşlıq etməyə və bir-birilərini dəstəkləməyə çağırır. Bunu nəzərə alaraq, Azərbaycan böhran dövründə təchizat zəncirlərində qırılmaların qarşısının alınması və vacib malların sərbəst axınının təmin edilməsi yolları ilə bağlı fikir mübadiləsinin aparılması məqsədi ilə Türkdilli ölkələrin fövqəladə Samitini təşkil edib. Malların və başlıca xidmətlərin mövcudluğunun asanlaşdırılması ilə bağlı Aİ siyasəti ilə uyğunluq təşkil etdiyindən, Aİ-dəki tərəfdaşlarımızın bu tədbirlərimizi qiymətləndirdiyini görməkdən məmnunuq.




Azərbaycan tərəfinin təşəbbüsü ilə təşkil olunmuş Qoşulmama Hərəkatının Kontakt Qrupunun Zirvə toplantısında Aİ bu günədək ilk dəfə yüksək səviyyədə təmsil olunmuşdur. Mən, bu tədbirdə bizə qoşulduğu və Zirvə toplantısının müzakirələrinə dəyərli töhfəsini verdiyi üçün Cozep Borelə təşəkkür edirəm. Biz, həmçinin BMT Baş Assambleyasının xüsusi iclasının çağırılması təklifini irəli sürmüşük və hər kəsi bu təşəbbüsü dəstəkləməyə dəvət edirik.

Azərbaycan COVID-19 böhranına, həmçinin çoxtərəfli çərçivədə cavab tədbirlərinə fəal şəkildə cəlb olunub və Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları ayırıb. Biz, həmçinin 14 ölkənin müraciəti əsasında onlara ikitərəfli qaydada yardım göstərmişik. Bu gün Azərbaycan COVID-19-la mübarizədə ən çox humanitar yardım göstərən ölkələr siyahısındadır və bu, bizim həmrəylik və əməkdaşlığa sadiqliyimizə dələlət edir.

Şərq Tərəfdaşlığının gələcəyi ilə bağlı Aİ-nin Birgə Müraciət sənədi ikitərəfli əməkdaşlığa güclü diqqət ayırır. Ehtiyaclara uyğun yanaşma Azərbaycanın Aİ ilə münasibətlərində axtardığı mühüm siyasətdir. Bu, bərabərliyə və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıqdır. Yeni ikitərəfli Saziş üzrə danışıqların uğuru açıq qalan məsələlərin həlli yollarının tapılmasında danışıqlar aparan tərəflərin çevikliyindən asılı olacaq.

Yaxşı idarəçilik məsələlərində tərəfdaş ölkələrlə təhlükəsizlik dialoqlarının gücləndirilməsi vasitəsilə dayanıqlı institutlar, qanunun aliliyi və korrupsiyaya qarşı mübarizədə Aİ-nin dəstəyini alqışlayırıq. Ötən ilin dekabr ayında Bakıda uğurla keçirilmiş Azərbaycan - Aİ Təhlükəsizlik Dialoqundan sonra biz meydana çıxan regional və beynəlxalq təhlükəsizlik təhdidləri üzrə məhsuldar fikir mübadiləsinin aparılmasını səbirsizliklə gözləyirik.

Enerji sahəsində, Cənub Qaz Dəhlizinin yekunlaşmasına az qalır və bu layihə Şərq Tərəfdaşlığında gücləndirilmiş bağlantıların ən nəzərə çarpan nəticəsi olacaq. Biz pandemiyadan təsirlənmiş yerli insanların COVID-19 ilə mübarizəsinin dəstəklənməsi və layihənin vaxtlı-vaxtında icrasına təminat yaradılmasında TAP-dakı tərəfdaşlarımızın məsuliyyətli davranışını qiymətləndiririk.

Azərbaycanın nəqliyyat-logistika sisteminin vacibliyi strateji əhəmiyyətinə görə tanınır. Azərbaycan ŞT və Mərkəzi Asiya cinahlarında çalışır. Biz, digər tərəfdaşlarla GUAM çərçivəsində Mərkəzi Asiya və daha geniş bölgəyə alternativ marşrutu təmin edəcək nəqliyyat dəhlizi üzərində iş aparırıq. Biz, həmçinin Mərkəzi Asiya ölkələri ilə ATƏT-in "Xəzər dənizi regionunda yaşıl limanlar və bağlantıların təşviqi" layihəsi çərçivəsində əməkdaşlıq edirik və Aİ-nin buna dəstəyini alqışlayırıq.

Xəzər dənizinin Şərq sahilində Azərbaycan Lapis-Lazuli nəqliyyat dəhlizinin həyata keçirilməsi üçün Türkmənistan və Əfqanıstan ilə intensiv dialoq aparır. Mənim ölkəm Aİ-nin bu bölgə ilə bağlı strategiyasının həyata keçirilməsində vacib rol oynaya bilər və biz buna hazırıq. Biz ümid edirik ki, enerji sahəsində strateji əməkdaşlığın nəqliyyat-logistika sahəsində də genişləndirilməsi Aİ-Azərbaycan tərəfdaşlığının gücləndirilməsinə mühüm töhfə verəcək.

Biz inanırıq ki, gələcək Aİ-Azərbaycan əməkdaşlığı həm də ölkəmizin milli prioritetlərinin həyata keçirilməsinə töhfə verəcək. Azərbaycan iqtisadi şaxələndirmənin sürətləndirilməsi, bütün sahələri əhatə edən inkişafın təşviqi və COVID-19 sonrası iqtisadi dirçəlişin dəstəklənməsi məqsədilə strateji inkişaf gündəliyinin icrasına davam edir. İnfrastruktur şaxələndirilmiş iqtisadiyyatın ehtiyaclarının qarşılanmasında mühüm rol oynayır və bizim sərmayələrimiz sənaye parkları, müstəsna iqtisadi zona, qanun və tənzimləmələr, maliyyə xidmətləri və informasiya texnologiyaları ilə tamamlanır. İnnovasiya, informasiya və yüksək texnologiyaların təşviqi bizim ortaq məqsədlərimizdir. Bütün bunlar insan kapitalı və keyfiyyətli təhsil, xüsusən tibb sahəsində olmaqla peşəkarların hazırlığının artırılmasına yeni diqqətin göstərilməsini tələb edir və biz Aİ-ni davam edən səylərimizə dəstək göstərməyə dəvət edirik.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğu regionun təhlükəsizliyinə ən böyük təhdid kimi qalmaqdadır. BMT-nin Baş Katibinin və Aİ-nin Ali nümayəndəsinin qlobal atəşkəs ilə bağlı müraciətinə baxmayaraq, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir, həmçinin gərginliyi artırmağa və münaqişənin siyasi həllinə mane olmaq üçün hər cür səy göstərir. Ermənistan özünü "demokratiya" kimi təqdim edir, lakin hələ də öz doğma torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlının insan hüquqlarını pozmağa davam edir.

Bütün dünyanın COVID-19 ilə mübarizəyə səfərbər olunduğu dövrdə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər" və "andiçmə" mərasimi keçirir. Danışıqlar aparmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əməl etməkdən boyun qaçırmaqla Ermənistan münaqişənin həlli prosesinin qarşısını alır. Beləliklə, Ermənistan ŞT-nin sabitlik və rifah kimi fundamental prinsiplərinə xələl gətirir.

Aİ Şurasının sonuncu Yekunlar sənədində bəyan edildiyi kimi, ŞT-nin fundamental əsasları qaydalara əsaslanan beynəlxalq nizam və tərəfdaş ölkələrin ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi daxil olmaqla beynəlxalq hüquqla bağlı bölüşülən öhdəliklərimiz üzərində qurulur. Biz bu prinsiplərin ikitərəfli və çoxtərəfli əməkdaşlıqda təşviqində Aİ ilə həmrəyik".

## Sərt qarantin rejimində qatarların fəaliyyəti dayandırılacaq

Nazirlər Kabinetinin qərarına müvafiq olaraq, iyunun 14-ü və 15-də Bakı-Sumqayıt-Bakı marşrutu üzrə elektrik qatarlarının hərəkəti dayandırılacaq. "Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) SİA-ya verilən məlumata görə, iyunun 16-dan qatarların cari qrafik əsasında Abşeron Dairəvi dəmir yolu xətti üzrə hərəkəti bərpa olunacaq.




## Dünyada koronavirusa yoluxanların sayı 7,5 milyona yaxınlaşır

Dünya miqyasında koronavirusa yoluxanların sayı 7 milyon 458 min 921 olub. SİA-nın məlumatına görə, bu günədək 419 min 20 nəfər infeksiya səbəbilə dünyasını dəyişib. 3 milyon 778 min 218 nəfər sağalıb. Hazırda 3 milyon 261 min 683 nəfərin müalicəsi davam edir. Onlardan 53 min 887 nəfərin vəziyyəti kritik qiymətləndirilir. Dünən gün ərzində 12 min 692 yeni yoluxma, 883 ölüm qeydə alınıb.



## Bəzi dövlətlər COVID-19 pasportu tələb edəcək

"Xarici dövlətlərdən vətəndaşlarımızla bağlı hansı tələblər olduğunu soruşmuşuq". SİA xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov bildirib.

Onun sözlərinə görə, Ukrayna, Belarus və Qırğızıstan artıq bununla bağlı cavab göndərib: "Bəzi dövlətlər COVID-19 pasportu tələb edəcəyini bildirib. Sərnişinləri karantinə götürəcək dövlətlərindən bəzilərində isə bu karantinin kimin hesabına olacağı aydın deyil".

## Azərbaycan bu ölkələrlə uçuşları bərpa etmək istəyir

"Türkiyə, Macarıstan, Qazaxıstan və Rusiya aviaşirkətləri Azərbaycana uçuşları bərpa etmək istəyir". SİA xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru Arif Məmmədov deyib.

O qeyd edib ki, son günlər ərzində koronavirusa yoluxanların sayı artıb: "Hava daşınması zamanı insanlar uzun müddət qapalı məkanda olur. Eyni zamanda təyyarə bir neçə ölkənin hava məkanı üzərində uçur və başqa ölkəyə enir. Ona görə də hazırlanan qaydalar sərnişinlərin sağlamlığını qorumaq məqsədi daşıyır. Beynəlxalq Mülki Aviasiya Təşkilatı və digər təşkilatların tövsiyələri nəzərə alınaraq müvəqqəti qaydalar hazırlanıb. Artıq məlumat aldıq ki, Nazirlər Kabineti bu qaydaları təsdiqləyib".



# Vətənin xilası, xalqın qurtuluşu - 15 İYUN

***15 iyun - Milli Qurtuluş Günü... Düz 27 il bundan öncə, tarixin bü günü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edildi. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə ölkədə milli birliyə nail olundu, iqtisadi-siyasi həyatda ciddi uğurlara imza atıldı. Belə bir deyim var: adını tarixə yazanlar, adı ilə tarixi yazanlar. Ulu Öndər Heydər Əliyevin adı Azərbaycan tarixinə böyük hərflərlə həkk olunub.***



*ZƏRİFƏ QULİYEVA, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü*

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu Azərbaycan xalqının Ümummilli Lideri kimi adını tarixə qızıl həriflərlə yazmış dahi Liderdir. Heydər Əliyev Azərbaycanın yüksəldən onu tanıtdıran, inkişaf etdirən Lider kimi hər birimizin qəlbində əbədiyyətə qədər yaşayacaqdır. Bugünkü Azərbaycanımız, müstəqilliyimizin möhkəmlənməsi və ölkəmizin lider dövlətə çevrilməsi, məhz Ulu Öndər Heydər Əliyevin müqayisə edilməyən siyasətinin məntiqi nəticəsidir. Lakin 1990-92-ci illərdə, səriştəsiz rəhbərlik, eyni zamanda, ölkədə yaradılmış bir çox siyasi qruplaşmalar, xaos, özbaşınalıq yaradaraq, Azərbaycanı uçuruma aparırdı, dövlətçilik, müstəqillik böyük təhlükə altında qalmışdı. Belə bir vaxtda xalq Heydər Əliyevin Azərbaycana qayıdışı tələbi ilə çıxış edirdi və bu tarix 1993-ci il iyunun 15-də Azərbaycanımızın salnaməsinə qızıl hərflərlə yazıldı.

## Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz". Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

## Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi - dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün Lideri - İlham Əliyev

Bəli, bugün Azərbaycanda siyasi hakimiyyətin Heydər Əliyevin yaratdığı dövlətçilik təməli üzərində inkişaf etdirilməsi, möhkəmləndirilməsi zərurəti üzərində düşünərkən təsdiqini tapmış belə bir həqiqəti dərk edirik ki, Heydər Əliyevin siyasi uzaqgörənliyinin zirvəsi onun özündən sonra siyasi kursunu hamıdan yaxşı davam etdirərək, Azərbaycanın müstəqilliyini hamıdan yaxşı qoruya biləcək, dövlətimizin inkişafını hamıdan yaxşı təmin edəcək yeni dövrün Liderini - İLHAM ƏLİYEVİ yetişdirməsi olmuşdur.

Azərbaycanı Qafqazın ən qüdrətli dövlətinə çevirmiş, ölkəsinin bütün sahələrdə qalibiyyət potensialını üzə çıxarmış Prezident İlham Əliyevlə Azərbaycan xalqı özünə ən etibarlı siyasi gələcək, mütərəqqi inkişaf yolunu seçdiyini təsdiqləyir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür. Onun 2003-cü ildə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünyaya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. Heydər Əliyevin siyasət məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar sayəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır. Prezident İlham Əliyev vurğulayıb: "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir".

## Dövlətləri və millətləri birləşdirən uğurlu siyasət

Bəli, bu, Azərbaycan Prezidenti İlham Əliyev siyasətidir. Son aylar dünyanı çalxalayan koronavirus pandemiyasıdır. zamanında Qoşulmama Hərəkatının Sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə Zirvə görüşününü keçirilməsi, ilk növbədə keçirilməsi ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir. Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq.

Göründüyü kimi, bu Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün həmçinin, dünyaya yol göstərdi. Bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı antiböhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Və Azərbaycan dünya üçün qlobal düşüncəni təqdim etdi. Bu, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət oldu. Bu siyasət Azərbaycan tərəfindən təqdim olundu. Azərbaycanın gördüyü işlər təkcə bu gün yox, gələcəkdə də öyrəniləcək. Əlbəttə ki, bu bir fəxrdir, qürurdur!

Bəli, bütün bunların əsas mənbəyi isə məhz 15 iyun tarixindən doğan reallıqlardır. Və biz bir daha əminliklə deyə bilərik ki, əldə edlən inkişaf və tərəqqi müstəqil Azərbaycan uğrunda və Heydər Əliyevin ölməz ruhu qarşısında fədakarlıqla çalışmağın nəticəsidir.

Ulu Öndər Heydər Əliyevin özü vaxtilə müdrikcəsinə demişdir: "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz. Bundan sonra heç bir qüvvə Azərbaycan dövlətçiliyini məhv edə bilməz".

Bu inam, bu qətiyyət Milli Qurtuluş gününün mənası və verdiyi ibrət dərsləridir. Bu onu göstərir ki, nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla, irəliyə aparacaqdır.

## Prezident İlham Əliyev: "Ona zaman da qalib gələ bilmədi"

"...Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi!"

Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi bu fikirlər zaman keçdikcə öz əhəmiyyətini saxlamaqdadır və saxlayacaqdır. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyanın döyünən ürəyinə, mərkəzinə çevrilən bir ölkə kimi beynəlxalq aləmdə də öz qətiyyətli sözünü deməkdədir. Çünki Ümummilli Lider Heydər Əliyev ideyaları sarsılmaz, dönməzdir və bu ideyalaları başda dövlət başçımız İlham Əliyev olmaqla, bütün xalqımız yaşadır. Bizlər də bu faktoru əsas götürərək Azərbaycanımızın çiçəklənməsi naminə Ulu Öndər Heydər Əliyev ideyalarının layiqli davamçısı cənab İlham Əliyevin ətrafında daha da sıx birləşəcəyik.

Fürsətdən istifadə edərək mən də qürurlu azəbaycanlı kimi bütün xalqımızı qarşıdan gələn gələn bayram münasibəti ilə ürəkdən təbrik edirəm. BAYRAMLARINIZ MÜBARƏK BÖYÜK VƏ QÜDRƏTLİ AZƏRBAYCAN XALQI!

## "Azərbaycan beynəlxalq miqyasda özünü məsuliyyətli aparır"

"Virusun dünyanı ağır duruma saldığı bir zamanda 3 beynəlxalq təşkilata, o cümlədən, ÜST-ə 10 milyon dollar, ehtiyacı olan 29 ölkəyə xüsusi yardımların göstərilməsini Azərbaycanın beynəlxalq miqyasda özünü çox məsuliyyətli aparmasının göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü olan deputatı Azər Badamov deyib.



Millət vəkili bildirib ki, mayın 9-da modul xəstəxanaların açılışında Prezident İlham Əliyevin "Azərbaycan benəlxalq miqyasda özünü çox məsuliyyətli aparır" ifadəsinin arxasında qlobal pandemiyanın dünyanı ağuşuna aldığı bir zamanda bu mübarizədə ölkəmizin beynəlxalq səviyyədə gördüyü konkret işi dayanır: "Azərbayan Prezidenti liderlik missiyasını öz üzərinə götürərək, dünyanın müxtəlif qütblərini bir araya gətirərək bu mübarizədə həmrəyliyin nümayişinə əvəzsiz töhfə verir. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının onlayn Zirvə toplantıları keçirməklə dünya ölkələri ilə COVID-19 infeksiyası ilə mübarizə mövzusunu gündəmə gətirən ilk ölkədir. Qoşulmama Hərəkatının Zirvə video görüşünə 55 ölkəni təmsil edən Afrika İttifaqının və 28 ölkəni təmsil edən Avropa İttifaqının da qatılmasını bu görüşün əhəmiyyətini və dəyərini daha da artırmışdır. Videokonfransda İlham Əliyevin təklifi ilə COVID-19-la bağlı xüsusi sesiyanın keçirilməsi ilə bağlı BMT-nin Baş katibinə ünvanlanan müraciətinin yekdilliklə qəbul olunmasını dünyanın ölkəmizin təşəbbüslərinə böyük dəyər verdiyinin göstəricisidir".

Azər Badamov vurğulayıb ki, virusun dünyanı ağır duruma saldığı bir zamanda 3 beynəlxalq təşkilata, o cümlədən, ÜST-ə 10 milyon dollar, ehtiyacı olan 29 ölkəyə xüsusi yardımların göstərilməsini Azərbaycanın beynəlxalq miqyasda özünü çox məsuliyyətli aparmasının göstəricisi hesab edirəm: "150 ölkəninin beynəlxalq maliyyə qurumlarına yardım üçün müraciət etdiyi ağır böhranlı şəraitdə Azərbaycanın ölkədaxilində pandemiya ilə uğurlu mübarizə aparmasını və beynəlxalq səviyyədə humanitar missiyasının həyata keçirilməsini ölkə başçımızın apardığı düşünülmüş siyasətinin və yüksək siyasi iradəsinin uğurlu göstəricisi hesab edirəm".

Nigar Məmmədova

## Azərbaycandan Kann Festivalının təşkilatçılarına etiraz MƏKTUBU

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Kann Festivalının təşkilatçılarına etiraz məktubu göndərib.SİA-nın məlumatına görə, məktubda Dağlıq Qarabağın azərbaycanlı icması ermənilərin Kann Festivalına təqdim olunmaq üçün çəkdiyi "Əgər külək olsa" (Si le vent tombe) filminin yayımlanmasına etiraz bildirib.



Qeyd olunub ki, sözügedən film Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qanunsuz olaraq çəkilib. Məktubda vurğulanıb ki, filmdə göstərilən Xocalı Aeroportu Azərbaycana məxsusdur və işğaldan sonra Ermənistan tərəfindən qeyri-qanuni olaraq bərpa olunub.

Məktubda festival təşkilatçılarına Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsi, bir milyondan çox insanın öz yurdundan didərgin düşməsi və bu insanların 30 ilə yaxındır öz evlərinə qayıda bilməməsi haqda da məlumatlar yer alıb. Sonda ədalətin bərpa olunmasına, münaqişənin həllində sülhyönümlü nəticə əldə etmək üçün festival təşkilatçıları tərəfindən səy göstəriləcəyinə ümid ifadə olunub.

# Heydər Əliyev - Hüquqi dövlət quruculuğunun banisi!

***Azərbaycanın çağdaş tarixini Ümummilli Lider Heydər Əliyevin fəaliyyətindən kənar təsəvvür etməyin mümkünsüzlüyü ictimai fikirdə birmənalı şəkildə qəbul edilən real həqiqətdir. Bu həqiqət nəinki Azərbaycanın müasir mövcudluğunda, həm də ona aparan yollarda qarşıya çıxan saysız-hesabsız maneələrin aradan qaldırılmasında Heydər Əliyev dühasının nümayiş etdirdiyi uzaqgörənlikdə, iradə və qətiyyətdə, müdriklik və dərin zəkada təzahür edir. Bu baxımdan, hər kəs yaxşı bilir və dərk edir ki, Heydər Əliyevə məxsus dahilik keyfiyyətləri olmasaydı, həmin maneələr aradan qalxmaz, həyatımızın indiki gerçəkliyi olmazdı...***




1993-cü il iyunun 15-də Heydər Əliyevin qayıdışı təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsidir. Bu qayıdış Azərbaycan xalqının itirilmiş inamını özünə qaytardı, sabaha, gələcəyə ümidini artırdı. Ümummilli Lider "Mən buraya vəzifə üçün gəlməmişəm. Mən böyük yükü ancaq ona görə çiynimə götürmüşəm ki, xalqın həyatının ən çətin dövründə ona xidmət göstərim" deyərək ömrünün qalan hissəsini də xalqının xilasına həsr edəcəyini bildirmişdi. Beləliklə, Azərbaycan dövlətçiliyinin müqəddəratı həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevi yenidən hakimiyyətə dəvət edən Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək kimi dəhşətli fəlakətdən xilas oldu. Qısa bir müddət ərzində dövlət və hakimiyyət böhranına son qoyuldu, cəbhədə atəşkəs elan edildi və vətəndaş müharibəsinin qarşısı alındı. Bir neçə dövlət çevrilişi cəhdi və terror aktları dəf edildi və nəticə etibarilə ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Məhz Heydər Əliyev Ermənistan və Azərbaycan arasında uzun müddətdən bəri davam edən qanlı müharibəni dayandırmağa, atəşkəs elan etməyə, münasibətləri sülh danışıqları müstəvisinə keçirməyə nail oldu.

O cümlədən, Qarabağ probleminin təkcə ölkədaxili məsələ olmadığını, bir dövlətin - Ermənistanın digər dövlətə - Azərbaycana ərazi iddiasından doğan bu silahlı münaqişənin geopolitik, dünyanın müxtəlif aparıcı dövlətlərinin iqtisadi, siyasi və hərbi maraqlarının toqquşduğu və bu maraqlardan asılı bir problem olduğunu məhz Ulu Öndər Heydər Əliyev ilk dəfə dünyaya bəyan etdi, neçə ildən bəri məruz qaldığımız informasiya blokadasını dağıtdı, Azərbaycan həqiqətlərini dünyaya çatdırdı.



***Rəşadət AĞAYEV,
Şirvan Apelyasiya
Məhkəməsinin sədri***

Daha bir mühüm məqam budur ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyəti miqyas etibarilə çox geniş olduğundan, əslində, bu fəaliyyəti istənilən halda tam əhatə etmək qeyri-mümkündür. Bu baxımdan konkret olaraq "Heydər Əliyev Azərbaycanda insan hüquq və azadlıqlarının ən böyük təminatçısıdır" fikrini əsaslandırmaq məqsədilə tarixi əhəmiyyət kəsb edən bəzi mühüm faktları bir daha sadalamaq və təhlil etmək tam yerinə düşərdi. Həmin dövrlərin təhlilini apararkən belə nəticəyə gələ bilərik ki, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi Ulu Öndərin fəaliyyətinin əsas qayəsini təşkil etmişdir. Demokratiya və insan hüquqlarına sadiq olduğunu daim bəyan edən dahi Heydər Əliyevin Azərbaycan vətəndaşlarının hüquqlarının bərpa edilməsi sahəsindəki siyasəti gələcək nəsillərin yaddaşına ədalətin bərpası kimi həkk olunacaqdır. Bu baxımdan, müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə həyata keçirilən hüquqi islahatların ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu. Belə ki, demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklə qarşılaşmışdı. 1992-1993-cü illərdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Ümummilli Liderin həyata keçirdiyi siyasət sayəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhvali-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ qazandılar. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci il noyabr ayının 12-də Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən bu Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla, humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan Ulu Öndərin gələcək nəsillərə misilsiz töhfəsidir.

Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut edir. Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistlik sayəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmiş, həmin vaxtdan indiyədək qəbul olunmuş amnistiya aktları, əfv fərmanları minlərlə şəxsə tətbiq edilmişdir. Heydər Əliyev hər kəsin hüquqlarına hörmətlə yanaşılmasını, şəxsiyyətin alçaldılması, zorakılıq, işgəncə və bu kimi qeyri-qanuni üsul və vasitələrə yol verilməsi hallarının aradan qaldırılmasını hüquq-mühafizə orqanları qarşısında vacib vəzifə kimi qoymuşdur.

Daha bir tarixi məqam: 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzaladı. İnsan hüquqları sahəsində həyata keçiriləcək tədbirlərin istiqaməti və konsepsiyası həmin sənədlə müəyyən edildi və ümumdövlət səviyyəsinə qaldırıldı. Bunun ardınca təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda Azərbaycanın konkret inkişaf mərhələsinə uyğun olaraq insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması, elmi-tədqiqat institutunun yaradılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssislərin hazırlanması, öhdəliklərə əməl edilməsi və digər vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu fundamental sənədlərin fəlsəfəsi ondan ibarətdir ki, hər bir şəxs Konstitusiyada təsbit edilmiş hüquqlarının həyata keçirilməsi üçün bütün imkanlara malik olsun.

Habelə, ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanunun qəbul edilməsi oldu. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaratdı. Eləcə də, Milli Məclisin qəbul etdiyi qanunvericilik aktlarının, o cümlədən

# Heydər Əliyev - Hüquqi dövlət quruculuğunun banisi!

"Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunların əsas ruhu insan hüquqlarının müdafiəsi təminatlarının yaradılması olmuşdur. Söz yox ki, bunlar bir tərəfdən, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyat qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə edir.

Ümummilli liderin gərgin diplomatik səyləri və şəxsi nüfuzu sayəsində müstəqil respublikamız bir sıra nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmiş və öz beynəlxalq mövqeyini möhkəmləndirmişdir. Heydər Əliyevin xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmağa yönəlmişdi. Bu siyasət indi də möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, qələbələrlə zəngin bəhrələr verir. Belə ki, Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumağa, möhkəmləndirməyə və ölkəmizin dünya birliyinə inteqrasiyası üçün əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, indi Azərbaycan dövləti bölgədə və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkədaxili demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Bu gün Azərbaycan dövlətçiliyinin ən mühüm problemi ölkənin ərazi bütövlüyünün təmin olunmasıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində işğal altına düşmüş ərazilərimizin azad edilməsi, viran qoyulmuş kənd və şəhərlərimizin bərpa olunması, sayı bir milyonu keçən və uzun müddətdən bəri məşəqqətli köçkün həyatı sürən soydaşlarımızın doğma yurd-yuvalarına qayıtması Azərbaycan dövlətinin qarşısında çox məsul bir vəzifə, ən vacib məqsəd kimi durur. Müstəqil dövlətçiliyimizin banisi, müasir müstəqil Azərbaycanın memarı, Böyük Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev xalqımıza hədsiz məhrumiyyətlər, müstəqil dövlətimizə böyük itkilər gətirmiş təcavüzə son qoyulması üçün çoxşaxəli və səmərəli hüquqi-diplomatik addımlar atır. Məhz bütün bunların nəticəsidir ki, indi dünya birliyi Azərbaycanın haqlı olduğunu, Ermənistanın işğalçı və təcavüzkar siyasət yeritdiyini daha yaxşı anlayır. Təsadüfi deyil ki, bir çox mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qərar və qətnamələrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktı birmənalı şəkildə dəfələrlə təsdiqlənmiş, onun təcavüzkarlıqdan əl çəkməsi tələb olunmuşdur.

1995-2003-cü illər Azərbaycanın demokratik prinsiplərə sadiq bir dövlət kimi inkişafında mühüm bir dövr olmaqla, dünya birliyinə inteqrasiya yolunda ona çox böyük nailiyyətlər qazandırdı. Heydər Əliyevin siyasi müdrikliyi və beynəlxalq nüfuzu olmadan bütün bunları əldə etmək mümkünsüz idi. Həmin illərdə hakimiyyət bölgüsü prinsipinə uyğun dövlət idarəetmə sistemi formalaşmış, icra, qanunvericilik və məhkəmə orqanlarının səmərəli fəaliyyəti təmin edilmişdir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait dövlətimizdə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu bariz şəkildə təsdiqləyir. Ulu Öndərimiz vicdan və azadlıqların təmin edilməsini, tolerantlıq mühitinin yaradılmasını əsl vətəndaş cəmiyyətinin formalaşdırılması üçün mühüm amil sayırdı. Əbəs deyil ki, bu gün insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsiplərinə prioritet istiqamət kimi müstəsna dəyər verən Azərbaycanın dünyəvi və demokratik dövlət imicinin formalaşmasında Ümummilli Liderin xidmətləri əvəzsizdir.

Heydər Əliyev siyasi xəttinin alternativsizliyinə qəti əmin olan Azərbaycan xalqı bütün prezident seçkilərində də məhz Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı cənab İlham Əliyevə etimad göstərdi. Cənab İlham Əliyevin fəaliyyətinin ən mühüm göstəricisi odur ki, o, Heydər Əliyevin əsasını qoyduğu tərəqqini, əldə edilən nailiyyətləri təkcə qoruyub saxlamadı, həm də onların miqyasını genişləndirdi, inkişaf dinamikasını qat-qat artırdı. Böyük çətinliklə qazanılan ictimai sabitlik toxunulmaz qaldı, sosial-iqtisadi yüksəliş, mütərəqqi siyasi dəyişikliklər, hüquqi və demokratik yönümlü islahatlar uğurla davam etdirildi, demokratik prinsiplər və insan hüquqlarının prioritetliyi təmin olundu, xalqın sabaha inamı, dövlətə və rəhbərə etimadı daha da artdı. Ölkədə hüquqi münasibətlərin sağlamlaşdırılması istiqamətində atılan konkret addımlar öz bəhrəsini verdi, milli birlik, vətəndaş həmrəyliyi möhkəmləndi, yüzlərlə insan Prezidentin ali mərhəməti nəticəsində əfv olunub cəmiyyətdə yenidən özünü təsdiq etmək imkanı əldə etdi. Milli-mədəni intibah yeni yüksəliş dövrünə qədəm qoydu, azərbaycançılıq ideologiyası ətrafında mənəvi səfərbərlik təmin olundu.

Bu gün beynəlxalq reallıqları qiymətləndirərkən belə bir amil unudulmamalıdır ki, dövlətlərarası münasibətlər daim dinamikada və planetin ictimai-siyasi həyatının bütün sahələri ilə təmasda olan bir prosesdir. Bu müstəvidə dövlət başçısı özünün xarici siyasətində Heydər Əliyevin Azərbaycanın müstəqilliyi kontekstində işləyib hazırladığı, qlobal əhəmiyyət kəsb edən sülh diplomatiyasına üstünlük verir və düşünülmüş xarici siyasət strategiyasını həyata keçirmək üçün dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının ali kürsülərindən, habelə dünyanın digər aparıcı dövlətlərinin diplomatik vasitələrindən səmərəli istifadə edir.

Beləliklə, bir daha nəticəyə gələ bilərik ki, müstəqil Azərbaycan dövlətçiliyinin yaradılmasının və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və olduqca qiymətli bir irsdir. Bizlər isə bu irsi qoruyub-saxlamalı, inkişaf etdirməli və gələcək nəsillərimizə çatdırmalıyıq. Bu, bizim hüququmuz və vətəndaşlıq borcumuzdur!

## "Prezidentin söylədikləri vətəndaşlarımıza qayğı və diqqəti bir daha ifadə edir"



Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibb müəssisələrində müalicə alır. Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin mobil xəstəxananın açılışında söylədiyi fikirlər vətəndaşlarımızın sağlamlığına göstərilən qayğı və diqqəti bir daha özündə ifadə edir: "Bu kimi mobil tipli xəstəxanaların quraşdırılması, əlavə 2000 yerlik çarpayı ehtiyatının yaradılmasını təmin edəcəkdir ki, bu da gələcəkdə koronavirus pandemiyasına qarşı mübarizənin səmərəli aparılmasına, xəstələrin normal müalicəsinə əsaslı kömək göstərəcəkdir. Əhalinin sağlamlığının qorunması, virusa yoluxmaların qarşısının alınması üçün sistemli tədbirlərin gündən-günə genişləndirilməsi, bunun üçün lazım olan vəsaitlərin ayrılması, xəstəxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlər bir daha göstərir ki, ölkə rəhbəri üçün əhalinin sağlamlığından, təhlükəsizliyindən əziz heç nə yoxdur və hər bir vasitə insanlara xidmətə yönəldilmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə açılışda iştirak edən Cənab İlham Əliyev deyilənləri əməli işdə göstərməklə, ifadə etməklə hər an, hər vaxt insanların yanında olduğunu, onlara xidmət etdiyini bir daha göstərir və bu əlbəttə ki, ölkə vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanır. Azərbaycan vətəndaşları da onlara göstərilən qayğı və diqqəti, həyata keçirilən tədbirləri yüksək qiymətləndirməli, qaydaqanuna əməl etməli, intizamlı olmalı, sosial məsuliyyəti artırmalıdırlar. Hər kəs özünün və ətrafının sağlamlığının qeydinə qalmalıdır. Xəstəliyə yoluxmanın geniş yayılmasına imkan verilməməlidir. Yalana, şantaja uymaq lazım deyil. Bu bəladan əziyyət çəkən dünyaya, insanlara nəzər salmaq, lazımi nəticə çıxarmaq çox vacibdir".

*İnam Hacıyev*

## Naxçıvana uçuşlar 18 iyundan başlayacaq

"İyunun 18-də saat 12.00-sa Bakı-Naxçıvan istiqamətində ilk uçuş olacaq". SİA xəbər verir ki, bunu bu gün Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) vitse-prezidenti Eldar Hacıyev bildirib.

O deyib ki, həmin gün saat 15.00-da ikinci uçuş olacaq və Bakı-Naxçıvan-Bakı reysini həyata keçirəcək təyyarələrin maksimal sərnişin tutumu 106 yerlikdir: "Lakin, 100 yer satışa çıxarılacaq. Çünki bu gün təsdiq edilmiş yeni qaydalara uyğun olaraq əgər uçuş zamanı hansısa sərnişində xəstəlik simptomu aşkarlanarsa, həmin sərnişin təyyarənin arxa sıralarında ayrılmış zonada yerləşdirilməlidir. Həmin sərnişin respirator tipli maska ilə təmin edilməli, digər sərnişinlərdən məsafə saxlanması şərti ilə təchiz edilməlidir. Həmin 6 yer bunun üçün istifadə olunacaq".

*Nigar Məmmədova*

## Yaqut Qarayeva: "Ölkəmizdə sanitar-epidemioloji vəziyyət ciddi şəkildə pisləşib"



Son həftələr Azərbaycanda koronavirusa yoluxanların sayı gündəlik olaraq sürətlə artır. Virus səbəbindən ölənlərin sayında da gündəlik artım tendensiyası müşahidə olunur. AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 11-də keçirdiyi brifinqdə söyləyib.

O bildirib ki, ölkəmizdə sanitar-epidemioloji vəziyyət ciddi şəkildə pisləşib. Bu da karantin rejimi qaydalarının yumşaldılmasından sonra baş verib.

# 15 İyun-Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixində mühüm yer tutur

## *Milli Məclisin deputatı Malik Həsənovun yap.org.az-amüsahibəsi*

***- Malik müəllim, hər il 15 iyin tarixi ölkəmizdə Milli Qurtuluş Günü kimi qeyd olunur. Milli Qurtuluş Gününün müasir tariximizdə yeri və rolu barədə nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, 15 İyun-Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixində çox mühüm yer tutur. Azadlıq, müstəqillik hər bir xalq, dövlət üçün ən müqəddəs nemətdir. Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda illərlə mübarizə apararaq, bu yolda minlərlə şəhid verib. Ulu Öndər Heydər Əliyevin "Müstəqiliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" tezisi hər bir dövr üçün öz aktuallığını qoruyur, birliyə, həmrəyliyə bir çağırış kimi önə çəkilir.

Bu baxımdan, Azərbaycanın müasir tarixinin iki önəmli hadisələrindən biri Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa edilməsi və Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışıdır. Bu iki hadisə bir-biri ilə sıx bağlıdır. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı o zaman yenicə bərpa edilmiş dövlət müstəqilliyimizin başı üzərini almış çox ciddi təhlükələrin aradan qaldırılması ilə əlaqədar idi. Bu təhlükələri yaşayan Azərbaycan xalqı ölkəni düçar olduğu vəziyyətdən xilas etmək üçün dahi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etməklə Azərbaycanın qarşısında bugünkü uğurlarımız üçün imkanlar yaratdı.

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il 15 iyunun önəmi, əhəmiyyəti hər birimizə aydındır. Daxili çəkişmələr, Ermənistanın təcavüzü, ölkəyə rəhbərlik edənlərin şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmalarının yaratdığı problemlər, faciələr, anarxiya, özbaşınalıq, dövlət müstəqilliyini itirmək təhlükəsi məhz müstəqilliyimizin ilk illərinin səciyyəvi xüsusiyyətləri idi. Belə çətin məqamda Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etdi. Xalqı ilə birlikdə olduğunu bəyan edən ulu öndər Heydər Əliyevin iyunun 9-da Bakıya gəlişi, qardaş qırğınının qarşısını almaq istiqamətində göstərdiyi səylər o dövrün hadisələrinin şahidi olanların yaddaşlarındadır.

Ümummilli Lider iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətələrini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də isə Ulu Öndər Azərbaycanın Prezidenti seçildi. Bu qısa xronologiya bir daha Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyevə, dahi şəxsiyyətin isə xalqına bağlı olmasının təsdiqidir.



"Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm" tezisini önə çəkərək, bunu atdığı hər addımında sübut edən Ümummilli Lider Heydər Əliyev Azərbaycanı çox qısa zamanda böyük inkişaf, tərəqqi yoluna çıxardı. Verilən hər bir vədin konkret əməli işdə təsdiqinin nəticəsi idi ki, xalqın gələcəyə ümidləri daha da artdı. İstər Azərbaycan tarixində, istərsə də xalqımızın yaddaşında ümummilli lider Heydər Əliyev müstəqil, müasir dövlətimizin simvolu kimi qalmış və qalacaq. Azərbaycanın hər bir uğuru Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

***- Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illəri necə xarakterizə edərdiniz?***

- Birmənalı şəkildə qeyd etməliyik ki, həmin illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaq. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın iqtisadi inkişafının əsasını qoydu. Ölkəmizə inamın artması imzalanan sazişlərin sayında da özünü göstərdi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmində artımı xüsusi qeyd ediriksə, bu, məhz həmin dövrdə Azərbaycana qarşı yaradılan inamın nəticəsidir. Baxmayaraq ki, ölkəmiz hər zaman yerləşdiyi coğrafi məkana, malik olduğu təbii resurslara görə dünyanın diqqətində olub, müstəqilliyimizin ilk ilərində ölkədə mövcud olan ictimai-siyasi gərginlik bu diqqətə öz mənfi təsirini göstərmişdir.

Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər tərəddüdlərini gizlətməkdə çətinlik çəkirdilər. Ulu Öndər Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkədə yaradılan sabitlik, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycana inamı artırdı, çox qısa zamanda böyük investisiyalar məkanına çevrildi. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" bildirən Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu yeni neft strategiyası, bu strategiyanın təməlində dayanan "Əsrin müqaviləsi" Azərbaycanın bugünkü və gələcək yoluna işıq saçır. Azərbaycanın zəngin təbii resurslarının dünya bazarlarına çıxarılması, neft gəlirlərini ölkəmizin hərtərəfli inkişafına, xalqımızın rifahının yüksəlməsinə sərf edilməsi dahi şəxsiyyətin uzağa hesablanmış siyasətində əsas yer tuturdu. Neft gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipinin yüksək səviyyədə qorunması məqsədilə 1999-cu ildə yaradılan Dövlət Neft Fondu dövlət siyasətinin əsas prioritetlərini müəyyənləşdirir.

Bir əsas məqamı da qeyd etmək istərdim ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından öncə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Beynəlxalq neft, qaz sərgi və konfransının keçirilməsi Azərbaycanın enerji potensialının dünyaya təqdimatında mühüm rol oynadı. Ənənəvi keçirilən bu sərgi-konfranslar Azərbaycanın hər il enerji sektorunda qazandığı uğurlara bir baxış olmaqla, yeni-yeni əməkdaşlıq əlaqələrinin yaranmasına stimul olur.

İqtisadi tərəqqi digər sahələrin də inkişafını təmin etdi. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan biri-birindən əhəmiyyətli addımlar bir daha bu reallığı ortaya qoydu ki, daim xalqına güvənən, xalqına arxalanan Ulu Öndər Heydər Əliyev onların yaxşı yaşayışı üçün çalışır. Heydər Əliyev-xalq birliyi hər sahədə öz təsdiqini tapmışdır. Bu birlik, həmrəylik uğurların davamlı olması üçün açar rolunu oynayır. Dahi şəxsiyyət Heydər Əliyevin bu tezisi dünənimizin, bu günümüzün və gələcəyimizin, eyni zamanda Heydər Əliyev siyasətinə inamın aydın təsəvvürünü yaradır: "Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"

***- Ümummilli Liderimiz Heydər Əliyevin zəngin irsinin öyrənilməsi gələcək nəsillər üçün nə dərəcədə zəruridir?***

- Dahi şəxsiyyət Heydər Əliyevin ideal lider obrazını, dövləti, xalqı qarşısındakı xidmətlərini bir yazı ilə əhatə etmək qeyri-mümkündür. İllər bir-birini əvəzlədikcə bu xidmətlərin miqyasının genişliyi daha aydın görünür, işıq üzü görən tədqiqat əsərləri göstərilən səylərin böyüklüyünə, vətən, xalq anlayışlarının dahi şəxsiyyətin həyatının mənasını təşkil etməsinə işıq salır. Onun ən yüksək tribunalardan Azərbaycanlı olması ilə fəxr etdiyini bəyan etməsi harda yaşamasından asılı olmayaraq bütün soydaşlarımızı bu amal ətrafında birliyə çağırırdı: "Bizim hamımızın bir vətəni var-bu, Azərbaycandır. Hamımız bu torpaqda yaşayırıq- bu, Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir!"

Ümummillli Lider Heydər Əliyevin müasir Azərbaycanın memarı, qurucucu kimi təqdim olunması həmin dövrün, 1993-cü ilin iyun hadisələrinin bir cümlə ilə təhlilidir. Dahi şəxsiyyət Azərbaycanın düşdüyü ağır durumdan xilas olacağına böyük inamla yanaşdı: "Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir". Mövcud problemlərin çözüləcəyinə xalqda böyük inam hissi yaradan Ulu Öndər Heydər Əliyevin vaxtilə söylədiyi bu fikir bu günün gerçəklikləri fonunda özünü təsdiqləməklə yanaşı onun xalqımız, dövlətimiz qarşısındakı xidmətlərinə də aydınlıq gətirir. Düzgün müəyyənləşdirilən daxili və xarici siyasətin nəticəsidir ki, müstəqil Azərbaycan beynəlxalq aləmdə sabitlik diyarı, qüdrətli, zəngin, demokratik ölkə kimi mövqeyini günbəgün möhkəmləndirir. "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik". 1995-ci ildə qəbul edilmiş Konstitusiyamız insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratdı.

***- Bu gün Heydər Əliyev siyasəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirlir...***

- Sözsüz ki, prioritetlər müəyyənləşdirilərkən əldə olunan uğurların təhlilinə ehtiyac yaranır. Bu reallıq inkaredilməzdir ki, dövlətimizin düzgün təmələ əsaslanan siyasəti nəticəsində arxada qalan il əvvəlki ildən daha böyük uğurlarla zəngin olur. Ölkənin hərtərəfli inkişafında iqtisadi amilin rolunu önə çəksək, Azərbaycanın iqtisadi inkişaf srategiyasının bu gün digər ölkərə nümunə göstərilməsi uğurlarımızın təsdiqidir. 2003-cü ildən Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevirmişdir. Bu gün Azərbaycanın təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınması və nüfuz qazanması da deyilənlərin təsdiqidir.

Möhtərəm Prezidentimiz İlham Əliyev ilk gündən bəyan etdi ki, Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasəti davam etdirilməlidir. Son 17 ilə yaxın dövrün statistikasına diqqət yetirsək bu vədin konkret əməli işdə öz təsdiqini tapdığını görərik.

Bir faktı da qeyd edək ki, Azərbaycan bu gün Cənubi Qafqaz regionunun iqtisadiyyatının 80 faizinə sahibdir. İşsizlik və yoxsulluq 5 faiz civarındadır. Ötən illərdə açılan yeni iş yerlərinin sayı iki milyondan artıqdır. İqtisadi tərəqqi güclü sosial siyasətin həyata keçirilməsinə stimul verir. Əmək haqqları, pensiyalar artırılır, aztəminatlı ailələr ünvanli sosial yardım proqramından bəhrələnirlər. Paytaxt və bölgələrdə yeni məktəblər, xəstəxanalar, idman kompleksləri tikilib, istifadəyə verilib. Bütün bunlar Azərbaycanın hərtərəfli inkişafını təsdiqləyir. Dövlət başçısı İlham Əliyev bu əminliyi ifadə edir ki, ölkəmiz qarşıdakı illərdə regionun və Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında rolunu daha da artıracaq.

Hazırda bütün dünya koronavirus pandeiyası ilə mübarizəyə səfərbər olunduğu bir şəraitdə Azərbaycan bu məsələdə də dünya üçün nümunə göstərir. Bütövlükdə, həyata keçirilən siyasət Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirib.

# İşğalçı Ermənistanın özbaşınalığına son qoyulmalıdır!

*Avropa Parlamenti təmsilçilərinin birgə bəyanatları sübut edir ki, Ermənistan ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi sülh prosesinə mənfi təsirini göstərir*

***Məlum olduğu kimi, Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurandın, Azərbaycan üzrə məruzəçisi Jelena Zavkonun, Ermənistan üzrə məruzəçisi Trayan Baseskunun Ermənistan ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanatları yayılıb və həmin bəyanat özündə bir neçə məqamları əks etdirməkdədir.***

Lakin ən əsas məqam budur ki, artıq beynəlxalq aləm, nüfuzlu siyasi dairələr, xüsusilə də Avropa institutları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəklərini nümayiş etdirməkdədirlər. Daha dəqiq desək, hazırkı dövrə qədər də bir sıra Avropa təsisatları Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlarla, qətnamələrlə çıxış edərək, Ermənistanın təcavüzkar, işğalçılıq siyasətini pisləyiblər. Bəyanatlarda xüsusilə vurğulanıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və yeddi ətraf rayonunu işğal altında saxlamaqda davam etməsi beynəlxalq hüququn prinsiplərinin, o cümlədən 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş 822, 853, 874 və 884 saylı qətnamələrin pozulması kimi qiymətləndirilməlidir.

Onu da qeyd edək ki, bu faktor artıq illərdir davam edir. Misal üçün, hələ 2013-cü ildə Avropa Parlamentinin üzvü Vasilika Viorika Dancila Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Avropa Azərbaycan Cəmiyyətinin (AAC) sorğusuna cavabında qeyd etmişdi ki, Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini pozaraq Dağlıq Qarabağın və yeddi ətraf rayonun işğalını davam etdirir. Xatırlatma: "Bu işğalçılığa son qoyulmalıdır. Azərbaycanlı məcburi köçkünlər doğma yurd-yuvalarına təhlükəsiz şəraitdə qayıtmaq hüququnu özlərində saxlayırlar".

## Azərbaycan Avropa qonşuluq siyasətinin bir hissəsidir

V.V.Dancila həmin ərəfədə bildirib ki, Azərbaycan Avropa qonşuluq siyasətinin bir hissəsidir və Avropa İttifaqı tərəfdaş ölkələrlə sülhsevər münasibətlərin qurulmasında çox maraqlıdır. Odur ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Avropa nöqteyi-nəzərindən çox vacibdir. Sitat:



"Aİ hər zaman bəyan edir ki, münaqişə tezliklə öz həllini tapmalıdır. Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Ketrin Eşton 2010-cu ilin mayında Dağlıq Qarabağda keçirilmiş qondarma parlament, 2012-ci ilin iyulunda isə qondarma prezident seçkilərinin legitim olmadığını açıq şəkildə bəyan etmişdir. Ümumiyyətlə, beynəlxalq hüquq Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır".

Biz bu sıralamaya Avropa İttifaqı Şurasının Şərq Tərəfdaşlığı çərçivəsində təsdiqlədiyi sənədi də əlavə edə bilərik. Belə ki, burada da vurğulanır ki, Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycanın torpaqlarının bir hissəsini hələ də işğal altında saxlayır. Belə ki, Aİ Şurasının qərarında ərazi bütövlüyü məsələsinin təsbit olunması Ermənistanın işğalçı mövqeyinə ciddi zərbə vurur. Bu sənəd Azərbaycan diplomatiyasının növbəti ciddi uğuru, Ermənistanın isə diplomatik cəbhədə daha bir məğlubiyyətidir. Bütövlükdə, bu fakt Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin əyani nümunəsi, eləcə də ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisidir.

## Bəyanata "Azərbaycanın işğal altında olan əraziləri" ifadəsi işlədilir ki, bu da Avropa təsisatları tərəfindən işğal faktının təsdiq olunduğunu göstərir

Məhz bu kimi reallıqlardan nəticə çıxarıldığını da qeyd edərək belə bir qənaətə gəlmək olar ki, Avropa Parlamentinin həmsədrinin və həmməruzəçilərinin verdikləri birgə bəyanatları özündə mühüm amilləri əks etdirməkdədir. Belə ki, bəyanata "Azərbaycanın işğal altında olan əraziləri" ifadəsi işlədilir. Bu da Avropa təsisatları tərəfindən işğal faktının təsdiq olunduğunu göstərir. O cümlədən, sözügedən bəyanat Ermənistan tərəfindən Azərbaycanın işğal altında olan ərazilərində qeyri-qanuni fəaliyyət həyata keçirildiyini göstərir, infrastrukturu dəyişdirmək cəhdlərinin yolverilməzliyini diqqətə çatdırır. Bu baxımdan, Avropa təsisatları, beynəlxalq ictimaiyyət artıq görür və əmindirlər ki, Ermənistan infrastrukturu dəyişdirməyə cəhd göstərməklə və qeyri-qanuni məskunlaşdırma həyata keçirməklə işğalın nəticələrini qanuniləşdirmək istəyir.

O da sirr deyil ki, Azərbaycanın danışıqlar prosesində daim öz vədlərinə sadiq qalmasından fərqli olaraq, işğalçı rejimin rəhbərliyi daim bu məsələdən müxtəlif uğursuz cəhdləri ilə yayınmağa çalışır. Ona görə də, sonuncu bəyanatda tərəflərin səmimi danışıqlara dəvət olunması çağırışının ünvanı da məhz Ermənistandır. Daha dəqiq desək, beynəlxalq ictimaiyyət də danışıqlarda maraqlı olduğunu iddia edən, lakin işğal olunmuş ərazilərdə qeyri-qanuni əməliyyatlar həyata keçirən rəsmi Yerevanın sözü ilə əməlinin birbirinə tərs mütənasib olduğunu müşahidə edir.

## ATƏT-in Minsk qrupu isə yenə də susur..!

Lakin təəssüf doğuran faktorlardan biri də budur ki, beynəlxalq aləmin nüfuzlu qurum və təşkilatları, Avropanın aparıcı təsisatlarından fərqli olaraq, ATƏT həmsədrləri bu dəfə də fəaliyyətsizlikləri ilə yadda qalıblar. Onların Ermənistanın qeyri-qanuni əməllərinə münasibət bildirməmələri isə qurumun ciddiyyətini də şübhə altında qoymağa başlayır. Bu kimi yanaşmanın mövcud problemin həlli prosesinin uzanmasına şərait yaratdığını da demək mümkündür. Ona görə də, ATƏT-in Minsk qrupu dərhal öz mövqeyini ortaya qoymalı, işğalçıların növbəti addımlarına qarşı fikir səsləndirməlidirlər. Əks halda, bu institutun qeyri-ciddilik amilləri özünü daha çox göstərməyə başlayacaq və nüfuzu daha da aşağıya düşəcək.

***Rövşən RƏSULOV***

# "Erməni separatçıları məqsədlərini gizlətmirlər"



***"Erməni separatçıları İrəvanla birgə əvvəlcə işğal altındakı Şuşada "andiçmə mərasimi" keçirdilər. Separatçıların yeni "prezidenti" ikinci mərhələdə "təyinatlar" həyata keçirdi. Separatçılar hazırda keçiblər növbəti mərhələyə. Söhbət separatçıların reallaşdırmağa çalışdığı "yol xəritəsindən" gedir. İlk olaraq yunanlardan başlayıblar". Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.***

Politoloqun sözlərinə görə, Azərbaycan Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağ separatçıları ilə Kipr Yunan Respublikası arasındakı əlaqələri araşdırmasına və yunanlara xəbərdarlıq mesajı göndərməsinə ehtiyac var: "Məsələ burasındadır ki, Dağlıq Qarabağ separatçılarının "parlament sədri" Artur Tovmasyan iyunun 10-da açıqlama verərək Kipr Respublikası ailə "Artsax-Kipr" dostluq qrupu formalaşdırdıqlarını bildirib.

Bu qeyri-rəsmi klub deyil, qrupa Kipr Yunan Respublikası tərəfindən bu ölkənin deputatları, bələdiyyə üzvləri və adanın müxtəlif siyasətçiləri daxildirlər. Kipr Yunan Respublikası bu yolla Dağlıq Qarabağ separatçıları ilə rəsmi təmas qurmuş olur. Əslində erməni separatçılarıyla adı çəkilən qrupun yaradılması təşəbbüsü martın əvvəllərində Kirpdə verilmişdi. Tərəflər dünyanı bürüyən koronavirus epidemiyasına baxmayaraq, bu aylarda ciddi çalışıblar və əməkdaşlığı genişləndirmək üçün "yol xəritəsi" tərtib ediblər.

İşin arxasında Yunanıstanın olmasına dair şübhələr var. Yunanıstanla Türkiyə arasındakı münasibətlər son zamanlar gərginləşib. Görünür, rəsmi Afina Bakı-Ankara strateji ittifaqının güclənməsinə Kiprdəki yunanlar vasitəsilə cavab verir. Rəsmi Afina istəsə Kiprdəki yunanlarla Dağlıq Qarabağdakı ermənilər arasındakı intensivləşən əlaqələrə son qoya bilər. Separatçılarla ada vasitəsilə əlaqələr davam edirsə, demək rəsmi Afina belə istəyir.

Erməni separatçıları məqsədlərini gizlətmirlər. Onlar yunanlarla yaratdıqları klubun fəaliyyəti vasitəsilə bir müddət sonra Kipr Yunan Respublikasının "Dağlıq Qarabağ Respublikasını" rəsmən tanıyacaqlarına ümid edirlər. Bu məsələdə erməni lobbisi yunan lobbisi ilə birgə çalışır.

Azərbaycan bu əlaqələri görməzlikdən gələ bilməz. Əks halda erməni separatçılarınınformalaşdırdıqları "dostluq" qruplarının sayı artacaq. Separatçılar mövcud "qrupları" fəallaşdırmağa və dünyada tərəfdar sayını artırmağa çalışacaqlar. Tərtib etdikləri "yol xəritəsinin" əsas hədəflərindən biri bölgəyə səfərlərin artmasını təmin etməkdir. Əlbəttə, hazırkı pandemiya dövründə bunu reallaşdırmaq mümkün deyil. Separatçıların bütün hazırlıqları postpandemiya dövrünə hesablanıb.

Separatçıların və erməni lobbisinin məqsədi bu "qruplar" vasitəsilə işğalı rəsmiləşdirməkdir. Hələ ki, bu onlarda alınmır. Ancaq separatçılar, Ermənistan hakimiyyəti və erməni lobbisi çalışmalarına ara vermirlər. Bu baxımdan Azərbaycan XİN birbaşa və ya Yunanıstan üzərindən Kipr Yunan Respublikasına nota göndərməlidir. Qoy rəsmi şəkildə desinlər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər və yaradılan qrupun Kipr Yunan Respublikasının rəsmi qurumlarına aidiyyatı yoxdur. Əgər belə bir cavab verərlərsə, bu erməni separatçılarına tərs şillə sayıla bilər. Yox əgər yunanlar Azərbaycan XİN-in notasına reaksiya verməzlərsə və ya məntiqsiz cavab verərlərsə, biz də onlara Kuzey Kıbrıs Türk Cumhuriyyəti ilə əlaqələrimizi daha üst səviyyəyə qaldıra biləcəyimizlə bağlı mesaj göndərə bilərik...".

***Ceyhun Rasimoğlu***

# "Kim qanunun tələblərini pozursa mütləq cəzalandırılmalıdır"

***"Koronavirus pandemiyası ilə mübarizəyə dövlətimiz bütün imkanlarını səfərbər edib. Məhz dövlətimizin düzgün və vaxtında yanaşmasının göstəricisidir ki, Azərbaycanda pandemiya nəzarət altında saxlanılır. Amma bu mübarizədə təkcə dövlətin fəaliyyəti kifayət etmir. Bu prosesdə vətəndaşlar da yaxından iştirak etməlidir. Amma bir qisim insan bu prosesdə nəinki iştirak etmir, hətta aparılan uğurlu proseslərə ləkə gətirmək yolunu tutub". Bunu SİA-ya millət vəkili Azər Badamov deyib.***

Deputatın sözlərinə görə, Azərbaycan polisi gecə-gündüz ölkədə asayi-



şin keşiyində dayanır: "Polis əməkdaşları bu ağır prosesdə öz həyatını təhlükəyə ataraq tətbiq olunmuş karantin rejimində fədakarlıq göstərir və cəmiyyətin sağlamlığının qorunması üçün öz öhdəsinə düşən vəzifəsini layiqincə icra edir. Amma çox təəssüf ki, bəzi şəxslər bu günün əsas tələbi olan qapalı məkanlarda tibbi maskadan istifadə etmir və hərəkətinə qadağalar tətbiq olunduğu vaxtlarda polisin işini ləkələmək məqsədilə küçələrə çıxır, öz vəzifəsini icra edən polis əməkdaşlarını təhqir edir və təhqiramiz hərəkətlərə məruz edir. Əvvəla onu qeyd etmək istəyirəm ki, polis əməkdaşları bizim sağlamlığımız və təhlükəsizliyimiz naminə iş başındadırlar və öz vəzifəsini layiqincə icra edir. İkincisi isə kim qanunun tələblərini pozursa mütləq cəzalandırılmalıdır. Haradasa polis ictimai asayişi pozan insanlara qarşı tədbir görürsə və ona görə polis əməkdaşlarını qınaq obyektinə çevirirlərsə, təhqirlərə məruz edirlərsə, belə insanlar ya geri təfəkkürlüdür, ya da müəyyən radikal dairələrin təsiri altına düşüb onların tapşırıqlarını icra edirlər. Həm də sosial şəbəkələrdə polisin ünvanına təhqirlərin və söyüşlərin yağdırılmasını mövzu edənləri xalqa və dövlətə düşmən kəsilmək kimi hesab edirəm. Bu gün polisin xidməti vəzifəsinin icrasında çəkdiyi əziyyəti görməmək millətin gələcəyinin məhv olunmağını istəmək kimi başa düşürəm. Biz polisimizlə fəxr etməliyik və onun öz vəzifə borcunu yerinə yetirilməsinə hər bir vətəndaş yardımçı olmalıdır".

***Ceyhun Rasimoğlu***

# Ermənistan COVID-19 qarşısında necə diz çökdü?

**Lenta.ru: "Virus ilk problem oldu ki, Paşinyan və komandası onu əvvəlki hakimiyyətin üzərinə ata bilmədi..."**

***Ermənistan COVID-19 koronavirus infeksiyası ilə mübarizə edən və uduzan ölkələrin sırasına düşmək üçün bütün şanslarını qoruyub-saxlamaqdadır. Ölkədə yenidən yoluxma sayının artması yönündə partlayış müşahidə olunmaqdadır. Ağır vəziyyətdə olan pasientlərin sayı artır, səhiyyə sisteminin resursları tükənir. Ancaq buna baxmayaraq, hakimiyyət sosial şəbəkələrdə küçələrdə maskasız gəzən vətəndaşları hədəfə alaraq onları utandırmağa çalışır.***

Vətəndaşlar isə utanmağa tələsmirlər, çünki epidemiyanın əvvəl vaxtlarından heç kim epidemioloji təhlükəsizlik qaydalarına riayət etməyib. Bununla yanaşı, vətəndaşların əksəriyyəti KİV-lər və tanınmış ictimai xadimlər tərəfindən səsləndirilən COVID-19-un konspiroloji teoremlərinə inanırlar. SİA xəbər verir ki, hazırda Ermənistanda mövcud vəziyyətlə bağlı Rusiyanın lenta.ru saytında geniş məqalə dərc olunub və ölkənin ciddi təhlükə riskləri ilə üz-üzə qaldığı barədə faktlara toxunulub.



Ermənistanın baş naziri Nikol Paşinyan ötən çərşənbə Facebook vasitəsi ilə canlı efirə çıxıb və vətəndaşları çaşqınlığa salan xəbər verib - ölkə epidemioloji böhrandadır və onun özü də COVID-19-a yoluxub, eləcə də ailəsi həmin infeksiyanın simptomsuz daşıyıcılarına çevrilib.

### Dəhşətli statistika, qorxulu rəqəmlər...

Ölkədəki vəziyyət həqiqətən də pisləşib: dünya ölkələrinin koronavirus epidemiyasının yoluxma riskinin azalmasından sonra məhdudiyyətləri aradan qaldırdığı bir zamanda Ermənistanda xəstələnənlərin sayı 3 dəfə artıb.

Mayn 20-də ölkədə rəsmi olaraq 5606 yoluxma halı göstərilib, iyunun 10-da isə artıq 14103 nəfər xəstələnən var. Ölüm sayları da sürətlə artıb - ölkədə 227 ölümdən 160-ı həyatını itirib. 77 nəfər isə koronavirusa yoluxsalar da, onlar "digər səbəblərdən" həyatlarını itiriblər. "Digər səbəblər" deyərkən nə nəzərdə tutulur və nəyə görə həmin "səbəblərdən" ölənlər bu qədər çoxdur - kimsə anlatmır...

Lakin kifayət qədər ehtimal etmək olar ki, reallıqda hər şey daha betərdir. Məsələn, iyunun 1-də həkimlər 1249 nəfərdən analiz götürüblər və təxminən yarısında müsbət rəylər çıxıb. Bununla yanaşı, sukta ərizndə 2 mindən artıq test keçirilmir, resurslar çatışmır. Artıq böhranın real masştablarını hakimiyyət də hissə-hissə qəbul etməyə başlayıb. Paşinyanın özü iyunun 7-də bəzi "analitik məlumatları" dərc edib. Həmin vaxt Ermənistanda 100 min yoluxan qeydə alınmışdı. Sonradan baş nazir həmin dərcini redaktə edib və həmin məlumatları silib.

Siruasiyanın pisləşməsində hakimiyyət vətəndaşları ititham edir - Paşinyan bildirib kiŞ xalq kütləvi şəkildə təhlükəsizlik ölçülərini rədd edir, xüsusilə İrəvanda. Baş nazir pozucularla mübarizəsini də Facebook vasitəsi ilə aparır, periodik şəkildə insanların küçələrdə maskasız gəzdikləri, sosial məsafə saxlamadıqları fotoşəkillərini yayır. O, sosial şəbəkələrin digər istifadəçilərini də "kütləvi antiepidemioloji hərəkata" qoşulmağa çağırır. Hakimiyyət heç bir başqa ölçülər tətbiq etməyə tələsmir. Paşinyan artıq eyham vurub ki, hüquq-mühafizə orqanları epidemiya ilə mübarizə aparmayacaqlar, çünki həmin məsələni həll edə biləcək belə bir "güc strukturu yoxdur".

### Erməni təxəyyülü "erməni geninin pozulması" iddiasını irəli sürür

Məqalədə digər məsələlərə də toxunulur və qeyd edilir ki, kütlənin böyük hssəsi virusa ciddi yanaşmır və buna iki səbəb də gətirilir. Birincisi - "məndən yan keçəcək" və qonşu barədə ümumiyyətlə düşünməmək, ikincisi isə konspiroloji teoremlərdir. Erməniçilik yanaşmasındakı nağıllar sıyahısında yalan elmlərdən tutmuş digər bir sıra gülməli teoremlər mövcuddur. Kimsə inanır ki, COVID-19 təhlükəsinə görə adi soyuqdəymə ilə eynilik təşkil edir. Bir az maariflənmiş şəxslər isə əmindirlər ki, virusu Bil Geyts hazırlatdırıb və insanların bədənlərinə vaksinasiya yolu ilə çip salmağa çalışırlar. Absurd hipotezlərlə də çıxış edənlər tapılır. Belə ki, epidemiyanın yaranmasına səbəb 5G qüllələrinin qurulmasıdır, halbuki Ermənistanda belə bir qurğu yoxdur, yoxdursa, demək ki, koronavirus da yoxuymuş...

Digər tərəfdən, adamlar "tanışlarının həyatlarında baş verən hadisələr" barədə danışırlar. Guya ölən insanların qohumlarına həkimlər yaxınlaşır və biriki yüz dollar təklif edərək, ölən şəxsin koronavirusdan həyatını itirdiyini ölüm tarixçəsinə qeyd etməyi istəyirlər. Belə antiaşıçılar iddia edirlər ki, guya hakimiyyət güc yolu ilə hər kəsi aşılamağa çalışır. Aşı isə bu insanların təxəyyüllərndə qəsdən yoluxdurma iddiasına yönəlir - sonsuzluq və digər hallar "erməni genini" pozur və s...

Ən kədərlisi isə koronavirusla bağlı dezinformasiyaları həkimlərin özlərinin yaymasıdır, lakin bunun qəsdən, bilə-bilə edilməsi, ya da həkimlərin öz peşələrini dərindən bilməməsi isə bəlli deyil. Məsələn, İrəvanın ictimai şurasının sabiq üzvü Marina Xaçatryan peşəsinə görə həkimdir, o deyir ki, koronavirus bioloji silahdır və illər sonraya hesablanmış hədəflərə görə hazırlanıb.

Bütün bu məsələlərlə yanaşı, lenta.ru yenidən Paşinyanın fəaliyyətinə nəzər salaraq onun əvvəl vaxtdan məsuliyyətsizliyini göstərib. Sayt yazır ki, əgər zamanında konspiroloqların təhlükəli fəaliyyətinin qarşısı alınsaydı, indi belə danışmazdılar. Ancaq bu baş vermədi. Əksinə, martın 1-də Ermənistanda ilk yoluxma halı qeydə alınarkən, ölkənin ən populyar Facebook blogeri Paşinyan canlı efirdə epidemiyanı məsxərəyə qoydu və hətta "koronavirus ümumiyyətlə kimin köpəyidir", deyə istehza edib.

Paşinyandan iki gün əvvəl isə ölkənin səhiyyə naziri Arsen Torosyan çıxış edərək virusun elə də təhlükəli olmadığını deyib və ona görə ciddi ölçülərin tətbiq edilməsinə ehtiyacın olmadığını bildirib. Halbuki ÜST beynəlxalq miqyasda fövqəladə halın yarandığını bəyan etmişdi.

Virus ilk problem oldu ki, Paşinyan və komandası onu əvvəlki hakimiyyətin üzərinə ata bilmədi...

### Ölkəsinin bir nömrəli Facebook-blogeri - Paşinyanın axmaq nümunələri

Məqalədə həmçinin bildirilir ki, baş nazir iki dəfə axmaq nümunə göstərdi. Misal üçün, yayımların birində o iddia edirdi ki, simptomsuz xəstələnmək təbii aşılanmadır və özünün də bu prosesdən keçməsini istəyir. Mayın sonlarında isə, Paşinyan Qarabağda təntənəli şam yeməsinə qatılaraq pandemiyanın qızışdığı vaxtda bütün qaydaları pozdu. Sonra isə baş nazir özünün yoluxmasını orada (Qarabağda) ofisiantların olduğuna işarə edərək, onlardan yoluxduğunu bildirdi.

Lenta.ru karantinin və digər ölçülərin heç bir səmərə vermədiyi qeyd etməklə yanaşı, Ermənistanın iqtisadiyyatına da zərbə vurduğunu yazır. Karantin rejimini pozanlara qarşı elə də ciddi ölçülər götürülmədi, lakin pozuculuq halları o qədər böyük masştablı oldu ki, əgər polis onların hər birini saxlasaydı, bu zaman ölkə əhalisinin yarıdan çoxu saxlanılanlar sırasında olardı.

Paşinyanın təhlükə ilə bağlı bəyanatından sonra polis anidən fəaliyyətsizlikdən fəaliyyətə keçdi və indi insanları 4-5 naryadlı polislər saxlayır, qollarını burur, yerə yıxır, boğur, ta ki, saxlanılanlar qışqırana qədər. Təəssüf ki, onlar amerikalı həmkarlarının kədərli səriştələrindən nəticə çıxarmayıblar, hansı ki, indi ABŞ irqçilik müharibəsi ərəfəsindədir.

*Rövşən RƏSULOV*

## Paşinyan: "Onlar fəaliyyətləri ilə öz məzarlarını qazırlar"



Daşnaksütyun ARF nümayəndələri hökumətin qurulmasından cəmi bir-iki ay keçdikdən sonra, yəni, 2018-ci ilin yayında hökumətin istefası barədə necə danışırdılarsa, indi də eyni ritorika ilə danışırlar. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan keçirdiyi brifinqdə söyləyib.

"Görünən budur ki, Ermənistanda təkcə sağlamlıq koronavirusu yayılmır, eyni zamanda, siyasi koronavirus da bir həqiqətdir. Lakin, sağlamlıq koronavirusundan fərqli olaraq siyasi mənada belə bir xəstəlik əlamətləri bütün ictimai və siyasi qüvvələrin ölümünə səbəb olacaqdır. Bu siyasi qüvvələrin Ermənistanın ictimai-siyasi həyatından tamamilə kənarlaşdırılacağını görəcəyik, çünki bu günlər öz fəaliyyətləri ilə öz siyasi məzarlarını qazırlar", deyə Paşinyan bildirib.

Ermənistanın baş naziri ölkəsini digər inkişaf etmiş ölkələrlə müqaisə etməkdən belə çəkinməyib. "Düşünürəm ki, inkişaf etmiş ölkələrdə siyasi bakteriya, virus Ermənistandakı kimi yayılır", deyə erməni baş nazir vurulayıb.

O, hər şeyə hərbi məntiq çərçivəsində baxıldığı təqdirdə çaxnaşma və yalan məlumatlar yayanların döyüş qaydalarına uyğun mühakimə olunmalı olduğunu vurğulayıb. "Bu yanaşmanı qəbul edənlər Ermənistan tarixinin zibil tullantılarına atılacaqlar", deyə baş nazir etiraf edib.

*İnam Hacıyev*

## ÜST-dən virusla bağlı kritik açıqlama



Yeni tip koronavirus daşıdığı halda, xəstəliyin simptomlarını göstərməyən - asimptomatik şəxslərdən virus keçib-keçmədiyinə dair araşdırmalar davam edir. SİA-nın məlumatına görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus deyib.

İsveçrənin Cenevrə şəhərində videokonfrans keçirən baş direktor hər həftə üzv ölkələr və media qurumları ilə birbaşa əlaqə saxladıqlarını dilə gətirib: "COVID-19-la bağlı ən son elmi dəlillər və pandemiyanın təkamülünə dair dünya ictimaiyyətini bilgiləndirməyə davam edirik. Fevral ayının əvvəlindən bəri asimptomatik insanların başqalarını yoluxdura biləcəyini söylədik, amma asimptomatik yoluxmanın dərəcəsini müəyyən etmək üçün daha çox araşdırmağa ehtiyacımız var. Bu araşdırma hələ də davam edir. Çox şey öyrəndik, amma hələ də bilmədiyimiz çox şey var".

Qeyd edək ki, daha əvvəl ÜST-ün virusla bağlı texniki briqadasına başçılıq edən Mariya Van Kerkove bildirmişdi ki, simptom göstərməyən xəstələrdən COVID-19 xəstəliyinin keçməsinə nadir hallarda rast gəlinir.

## Erməni mətbuatı: "Bu oyunun yalnız başlanğıcıdır, yeni dalğa gözlənilir"

"Son günlər güc blokunda ciddi dəyişikliklərin şahidi olduq və Milli Təhlükəsizlik Xidməti direktoru, polis rəisi və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifələrindən azad edildi. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu barədə "Past" qəzeti öz mənbələrinə istinadən yazır.

Bunlar əvvəlcə Dövlət Gəlirlər Komitəsi sədrinin istefası ilə başlandı", deyə qəzet yazır. Nəşrin yazdığına görə, baş verənlər oyunun başlanğıcıdır, çünki gələcəkdə yeni dəyişmə dalğası gözlənilir. "Mənbələrimizə görə, Nikol Paşinyan "kadr təmizlənməsini" iki cəhətdən aparmaq niyyətindədir. Birincisi, mümkünsə dövlət sistemində işləyən bütün köhnə kadrlardan canını qurtarmaqdır, ikincisi isə, onunla "birgə addımlayan", lakin artıq ona deyil, özünə güvənən, etibarından istifadə edilməsi mümkün olmayan məmurları əvəz etmək. Belələri isə heç də az deyil. Artıq, həm yüksək vəzifəli məmurlar, həm kifayət qədər əsas vəzifələr tutan liderlər, həm də ikinci dərəcəli vəzifəli şəxslər öz vəzifələri, postları ilə vidalaşırlar", deyə qəzet qeyd edir.

*İnam Hacıyev*

# “Daban daşı”nın sirri və ya sadəcə hamam-hamam içində...



Nicat DAĞLAR

***A**dı biraz yekə səslənir: AXCP Rəyasət Heyəti. Tərkibi, mahiyyəti, müzakirəyə çıxardığı məsələlərin xarakteri isə addakı zaftaya uyğun gəlmir. Təşkil etdikləri “online iclas”ı çoxunuz görmüsüz. Desəm ki, həmin o virtual toplantı AXCP-nin bügünkü rəzil durumunu çılpaqlığı ilə ortaya qoymuş oldu, yəqin ki, yanılmaram. Həmin iclasa tamaşa edənlərdən soruşsaq ki, nə gördüz və nə eşitdiz, yəqin ki, cavablar aşağı-yuxarı eyni olar: Çürümüş təfəkkür, çayxana ritorikası, küçə jarqonu, primitiv yanaşma, qeyri-etik replikalar, təhqir və aşağılayıcı ton. Dəyişən heç nə yox idi. Həmişəki formalarında idilər...*

Amma ədalət naminə deməliyəm ki, yeniliyə meylləmənin müəyyən işartılarını da müşahidə etdim. Artıq cəbhçilər öz əqidə qardaşlarını - müsavatçıları hamam aksesurlarına bənzətməyə başlayıblar. Məsələn, Əli Kərimlinin əsas adamlarından biri olan İlham Hüseyn Müsavat Partiyasının mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəylini “daban daşı” adlandırdı. Əməlli-başlı yenilikdir. Hər-halda cəbhəçi-müsavatşı qarşıdurmalarında hamam terminalogiyasından istifadə halları bu vaxta qədər müşahidə olunmayıb. Lakin sual yaranır: Niyə məhz daban daşı? Məncə İlham Hüseyn növbəti açıqlamalarında Mustafa Hacıbəylini “daban daşı” adlandırmasına aydınlıq gətirməli, fikrini hərtərəfli şəkildə əsaslandırmalı, iddiasını təsdiq etdirmək üçün ortaya ciddi arqumentlər qoymalıdır.

**Zəruri qeyd:**

Vulkanik fəaliyyətlər nəticəsində yaranan daban daşı (süngü daşı), məsaməli quruluşa malikdir, suyu udmur və gigiyenikdir. Yüksək temperaturda əmələ gəldiyi üçün sağlamlığı riskə atan heç bir elementi və molekulyar quruluşu yoxdur. Çürümə xüsusiyyətinə malik deyil. Daban daşı ayaq, dirsək, və diz kimi nahiyələrdə yığılmış ölü heyceyrələri təmizləyir və nəticədə dərinin rahat nəfəs alması təmin olunur. Daban daşı dərinin yumşaq və pambıq kimi olmasını təmin edir. İstifadə etməzdən öncə, isti suda saxlanılması faydalıdır.

Göründüyü kimi, daban daşı kifayət qədər müsbət xüsusiyyətlərə malikdir. Elə isə İlham Hüseyn nədən Mustafa Hacıbəylini insan sağlamlığı üçün xeyri az olmayan daşa bənzədib? Yox, burada nəsə başqa mətləb, başqa fəlsəfə var. Gərəkdir ki, bu məsələ ilə bağlı ayrıca “videokonfrans” təşkil olunsun və “daban daşı” iddiasının arxasında hansı gizli məqamların dayandığına dair aydın izahatlar verilsin. Ümumiyyətlə, AXCP rəhbərliyi hamam terminaligiyasına keçid kimi ciddi yeniliyə dair cəmiyyətə öz ismarışlarını çatdırmalı və müxalifət partiyaları arasında gedən mübarizədə daban daşının, eləcə də digər bu kimi gigiyenik vasitə və aksesuarların oynaya biləcəyi rol barədə mülahizələrini açıqlamalıdır. Əgər ağlabatan və tutarlı açıqlamalar verilərsə, bu halda AXCP, “Batmış”, “Bitmiş”, “Tükənmiş” kimi iddialardan və bütün yeniliklərə qapalı bir təşkilat olması barədə qınaqlardan müəyyən qədər yayına da bilər. Cəmiyyət görər ki, bu partiya yerində saymır, köhnə bayatılardan müəyyən qədər imtina edir və hamam avadanlıqlarının adını siyasi leksikokona gətirməklə də olsa ölkənin siyasi həyatına yeni ruh, yeni rəng qatmaq istəyir.

Hə, onu da deyim ki, Müsavat Partiyasının mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəyli AXCP Rəyasət Heytinin məlum online iclasında səsləndirilən fikirlərə cavab verəciyinə dair anonsla çıxış edib. Müsavatçı yoldaş özünün FB profilində bunları yazıb: “Gündəmin dəyişməsini istəmirəm, yurddan gələn son təhqirlərin səbəbini sonra açacam”.

Çox böyük ehtimalla “daban daşı” iddiası da cavabsız buraxılmayacaq. Məncə Musatafa Hacıbəylinin cavabı, “daban daşı” kimi hələlik qeyri-müəyyən bənzətməyə adekvat olmalıdır. Məsələn, o da öz növbəsində İlham Hüseyni hamam kisəsinə bənzədə bilər...

**Zəruri qeyd:**

Hamam kisəsi - möhkəm sapla cod parçadan tikilən və ələ keçirilərək bədənin sürtülməsi üçün istifadə edilən torbacıqdır. Yeri gəlmişkən, kisə də bədəndən ölü hüceyrələri təmizləmək üçün əntiqə vasitədir.

# “Qeybət, ədavət və təhqir bacaranların düşərgəsi”

***“M**üsavat və AXCP arasında qisasçılıq, kin və nifrət duyğusu yeni məsələ deyil”. Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib. Onun sözlərinə görə, hakimiyyətdə olanda da düşmən idilər, müxalifət statusunda fəaliyyətə başlayananda da. Onların başqa bir adı da var idi, bugün də var- mehriban düşmənlər! Bəzən mehribanlıq kəlməsi ortadan qalxır: “Aralarındakı kobud rəftar, bir-birinə qarşı güvənsizlik, sərt ittihamlar, bir-birini vahid komandada görməmək halları dəfələrə bütün çılpaqlığı ilə cəmiyyətin gözü önündə baş verib. Ümumilikdə müxalifət düşərgəsində siyasi ədavətdən saxta dostluğa, zahiri qardaşlığa transfer edib, sonra yenidən ədavətə, kinə sarılmaqlar ənənə halını alıb...*




Bunları xatırlatmağımıza səbəb AXCP Rəyasət Heyətinin onlayn iclasının sosial şəbəkələrdə yayılan son görüntüləridir. İclas, eynən Milli Şuranın onlayn toplantılarında olduğu kimi qeybətlə, təhqirlə zəngindir. AXCP Rəyasət Heyətində müsavatçılar “ləyaqətsiz”, “həyasız”, “şərəfsiz”, “dabandaşı”, “çaqqal” kimi sözlərlə aşağılanır. Məsələnin kökünə baxanda məlum olur ki, jurnalistlərdən biri hansısa status paylaşıb və müsavatçılar həmin statusun altında səfərbərlik nümayiş etdirərək çəbhəçilərin xətrinə dəyən nələrsə yazıblar. AXCP-nin Rəyasət Heyətində olanlar o qənatə gəliblər ki, Müsavat yaranmış vəziyyətdən yararlanıb önə çıxmaq istəyir. Əslində buna demək lazımdır qısqanclıq!

Bu qeybətlə zəngin yığıncağa reaksiya verməmək də olardı. Amma hakimiyyətə iddialı olan qüvvələrin, sadəcə bir jurnalistin statusundan alovlanan qisasçılıq həvəsi bir çox mətləblərdən xəbər verir. Birincisi, bir daha sübut olunur ki, müxalifət hələ də cılız hisslərin buxovunda sürünməkdədir.

İkincisi, müxalifətin iclaslarında heç bir ciddi məsələ müzakirə olunmur. Gah lətifə danışırlar, gah kiməsə şəbədə qoşurlar, gah da öz həmkarlarını xoruz səsi eşitməyən ifadələrlə təhqir edirlər. Bu qrup hər addımda özlərini hakimiyyətə ən real, ciddi qüvvə kimi sırımaqla, guya daima nələrsə müzakirə etdiklərini, ölkənin problemləri ilə bağlı xüsusi alternativ proqramlar işlədiklərini göstərməyə çalışırlar. İllərdir ki, bu minvalla yol gəlirlər.

Pandemiya dövründə istər AXCP sədri Əli Kərimlinin diktəsi ilə idarə olunan Milli Şuranın, istərsə də Cəbhənin keçirdiyi onlayn iclasların görüntüləri indi bu düzəni pozmaqdadır. Görüntülər isbat edir ki, bu adamların rəsmi iclasları belə çayxana söhbətləri ilə keçirmiş. Millət hansı seriala baxır, müxalifətdən kimlər nəyə oxşayır, sosial şəbəkədə süni təbliğatı necə şişirtmək olar və s-heç bir ciddi məsələ müzakirə predmeti deyil.

Əslində gözlənilən mənzərədir, çünki ciddi fəaliyyət üçün nə potensialları, nə də bacarıqları var. İndiyə qədər ancaq qarayaxma yolu ilə özlərinə radikal müxalifət imici yaradanların, reallıqda nə “mal” olduqları tam çılpaqlığı ilə ortadadır. Görüntülər o həqiqəti də bir daha qabardır ki, ümumiyyətlə müxalifətin bu kəsiminin ölkənin taleyi ilə bağlı heç bir ciddi alternativ siyasəti mövcud deyil. Yaratdıqları sadəcə görüntü imiş. AXCP sədrinin ətrafı maraqlı lətifə bilən, yaxşı qeybət bacaran, leksikonunda təhqiri zəngin, bekar adamlardan o tərəfə keçmir. Yığışırlar bir yerə, lağlağı edib gedirlər, guya sosial şəbəkələrdə “fırtına” yaradırlar...

Hiss olunur ki, ən zəif dönəmini yaşayan müxalifətdə birinci olmaq sevdası hələ də sönməyib. Bu düşərgədəki intriqalar qəzet səhifələrindən sosial şəbəkələrə daşınıb. İç qruplaşmaların intriqalarına əsir düşən, müxalifətdə birinci olmaq ambisiyasını kənara qoymayan liderlər özlərinin drijor çubuğuna tabe olan sosial şəbəkə səhifələrində bir-birlərini təhqir etməklə məşğuldurlar. Beləliklə, sosial şəbəkə Müsavat və AXCP münasibətlərində keçmişdəkiləri ortaya tökmək üçün yeni müstəviyə çevrilib.

Kəsəsi, açıq-aydın görünür ki, bu iki partiya aralarındakı problemlərdən yaxa qurtara bilmir. Hansısa bir ideyada, aksiyada şəxsi maraqlarını güdmək xislətləri dəyişmir. Keçmiş və indiki durum sübut edir ki, əzəli rəqiblər arasında ən xırda detalı belə razılaşdırmaq, problemsiz vahid mövqeyə gəlmək, səyləri birləşdirmək mümkünsüzdür. Fikir ayrılıqları, bunun nəticəsində bir-birinə kobudluq, irad tutmalar partiyalar arasında münasibətlərin heç bir zaman qaydaya düşməyəcəyi gerçəyini ortaya qoyur. Bu da bir gerçəkdir ki, müttəfiqinə sayğı bacarmayanlar, kin, qısqanslıq duyğusu ilə yaşayanlar, söyüşlə mübarizə aparanlar, lətifə ilə polemika açanlar siyasətdə ciddi imic formalaşdıra bilməzlər. Məhz AXCP kimi...”.

https://www.facebook.com/watch/?v=2142992505846802

***Ceyhun Rasimoğlu***

## Evdən qızıl-zinət əşyaları oğurlayan şəxs tutulub



İmişli Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il dekabrın 30-da rayon ərazisindəki evlərin birdən 4000 manat, 650 ABŞ dolları və 5000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş E.Muradov saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oğurluq etdiyinə görə tutulmuş O.Ağayevin ətrafında Xətai Rayon Polis İdarəsi 35-ci polis bölməsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki bir köşkdən tütün məmulatı, bir evdən pul və 1430 manat dəyərində qızıl-zinət əşyaları oğurlaması da müəyyənləşdirilib. Hər iki faktla bağlı araşdırmalar davam etdirilir.

## Tərtər sakinindən “TOZ-8” markalı tüfəng götürülüb



Polis əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi istiqamətində növbəti əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tərtər Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Qaradağlı kənd sakini Q.Əliyevin evindən “TOZ-8” markalı tüfəng, 10 giliz, bir patron kəməri və bir uzaqgörmə cihazı aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

# AXCP-Müsavat qarşıdurması çox düyünləri açdı

***Abırsızın abırı olmaz. Bu aksiomadır. Ancaq qəribəsi odur ki, belə abırsızlar başqalarından siyasi ləyaqət tələb edir. Və ən gülünc doğuranı da odur ki, epidemiyanın tuğyan etdiyi məqamda sosial şəbəkələrdən çağırışlar edən bu abırsızlar indii də başlayıblar başlayıblar satqın axtarışına. Bu o adamlardır ki, daim demokratiyadan, haqq və ədalət uğrunda sivil siyasi mübarizə aparmalarından pafoslu şəkildə danışan, özünü təriflәyən radikal müxalifət düşərgəsinin "ana", "ata" müxalifəti sayanlar görəsən satqını başqa yerdə niyə axtarır?. Elə satqın toplusu özləri deyilmi?. AXCP-dən tutmuş Müsavata, "Osmanqızı" və "Azərbaycan saatı" kanallarına kimi, yalan danışdıqları qədər də satqın deyillərmi? ictimai rəyi zəhərlənmədən qorumaq üçün onların ifşası mütləqləşir.***

Özü də özləri tərəfindən. Bu mənada, müxalifət düşərgəsində qarşılıqlı saldırmalar o qədər geniş və çoxşaxəlidir ki, məsələ sistemli bir yanaşma tələb edir. El bu günlərdə AXCP-nin keçirdiyi vidokonfrans kimə və nəyə lazım idi?.Nəyə nail oldunuz?



### AXCP üçün söyüş və təhqir təəccüblü hadisə deyil

Çünki AXCP-Müsavat arasında qarşıdurmalar, bu qarşıdurmalardan və ondan doğan qarşılıqlı ittihamlar, eləcə də təhqir və söyüşlər əslində uzun illərə söykənən reallıqdır. Əslində hər iki partiya illərdir bir-birini sıradan çıxarmaqla məşğuldur, biz bunu növbəti dəfə AXCP-nin rəyasət heyətinin "zoom" iclasında müşahidə etdik. Ya sosial şəbəkələrdə, ya da mətbuat vasitəsi ilə hər iki partiyanın rəhbərliyi hələ də qarşı tərəfi "satqın" ittihamı ilə atəşə tutur. Hər iki tərəf yenə də "xəyanətkar" ittihamı səbəbindən qarşı-qarşıya dayanıblar.

### "İctimai Palata"dan "Milli Şura"ya, oradan isə həqarət və təhqirlərə...

Əgər biz AXCP-nin məlum iclasında səslənən fikirləri növbəti dəfə nəzərdən keçirsək və ittihamların hansı səbəblərdən yarandığının təhlilini aparsaq bir sıra digər nüanslara vara bilərik. Ancaq buna keçməmişdən də əvvəl xatırlatmaq yerinə düşərdi ki, AXCP sədri Əli Kərimlinin müsavatçılara olan antipatiya xarakterli mövqeyi özünü daha çox Müsavat Partiyasının "Milli Şura"nın sıralarını tərk etməsindən sonra göstərməyə başladı. Halbuki, bu qurumdan əvvəl də həmin partiyalar "İctimai Palata" adlı iflasa uğramış qurumda bir araya gəlməyi bacarmamışdılar.

### Məmməd İbrahim: "Arif Hacılı və İsa Qəmbərlərin Mustafa Hacıbəyli kimi "dabandaşları olması onların söyüşə, təhqirə də layiqdirlər"

AXCP RH-nin virtual iclasındakı təhqirlərə. Müsavatçıların heç vaxt komanda şəklində iştirak etmədiyini, lakin cəbhəçilərə qarşı birləşdiklərini iddia edən partiyanın funksioneri Məmməd İbrahimin dediyi bu fikirlərindən belə nəticə çıxarmaq olar ki, AXCP daha öncələr də Müsavatın rəhbər şəxslərini təhqir hədəfinə alıb. Məsələn, "Bizim uşaqlar Arif Hacılı, İsa Qəmbər haqqında da yazılar yazıb", deyən cəbhəçi funksioner qarşı tərəfin bu dəfə komanda şəklində cavab verməlerinin təşkilatçısı olaraq Mustafa Hacıbəylini göstərib: "Belə bir şey görülməmişdi. Bu, sırf komanda idi. Hamısını dabandaşı Mustafa gətirmişdi".

Bu yerdə heç də təəccüb etmirsən, çünki artıq illərdir ki, özlərini "müxalifətin ana partiyası" kimi ictimai rəyə sırımağa çalışan kərimovçular müsavatçılar tərəfindən sıxışdırılmağa başlandıqlarını görüb, söyüş, təhqiri əsas çıxış yolu bilirlər. Və Müsavaatda olanları da şərəfsiziz hesab etdiklərini deyirlər. Bu yerdə, necə deyərlər "kor-kora kor deməsə bağrı çatlar". Hansı şərəfdən danışırsınız?. Məgər Əli Kərimli "şərəf", "mənəviyyat" nə olduğunu bilir?

Bu təhqir və söyüşlərin daha da qızışmasının səbəbi bəllidir. Belə ki, AXCP sədri Ə.Kərimli artıq olmayan nüfuzunu itirdiyini aydın görərək, Müsavat azacıq da olsa bunlardan fərqləndiyi üçün digər müxalifətçiləri də söyüş hədəfinə alaraq M.İbrahim bildirir ki: "Komanda verilmişdi və gəlib Aydın Can kimi şərəfsiz adamın statusunun altında çaqqal kimi ulaşırdılar. Çox biabırçı, şərəfsiz sözlər yazmışdılar. Adam baxıb cavab da vermək istəmir. Mən adi cümləmizi də onlara deməyə rəva bilmirəm. Özü də İqbalı tərifləyən statusda bunu etdilər. İqbal da bunları söyür. Elə birbaşa İqbal Ağazadə Aydın Cana o yazını yazdırmışdı. Onlara da komanda verilmişdi ki, gedin dəstəkləyin".

Baş verənlər isə ənənəvi savaşın ardı və qaragüruh müxalifətin bariz "simasıdır". Yenə də çayxana söz-söhbətləri, yenə də küçə və tin söyüşləri necə deyərlər, biri bir qəpikdən.

### İsmayıl Cəlilov: "AXCP trolları çox pis, tərbiyəsiz insanlardır. tərəfdarları çobana ehtiyacı olan cinayətkarlar sürüsüdür"

Avropada mühacir həyatı yaşayan İsmayil Cəlilovun sosial şəbəkələr, youtube üzərindən Kərimliyə ünvanladığı suallar, eyni zamanda ittiham və haqlı iradlar da açılmayan düyünlərin açılmasına səbə olub: "27 ilə yaxındır ki, hakimiyyətə gəlmək eşqi ilə yaşayan, bunun üçün istənilən addımı atmağa hazır olan, yeri gələndə ermənilərlə belə əməkdaşlıq etməkdən çəkinməyən AXCP sədri Əli Kərimli qarşısına qoyduğu məqsəd və vəzifələri reallaşdıra bilmədikcə daha təhlükəli olmağa başlayır. AXCP sədri indi o qədər də təhlükəli olub ki, hətta yaxın ətrafına da hücum etmək, onlara zərər yetirməkdən belə çəkinmir. Görünür zaman və müddət heç nəyi dəyişməyib. Elə götürək Əbülfəz Elçibəydən bu tərəfə kimlərə xəyanət etməyib Əli Kərimli? Əslində baş verənlər Kərimlinin əsl simasıdır - satan və satılan, xəyanətkar, cinayətkar, iblisxislətli şeytandır. AXCP sədri hansı şərəf, ləyaqətdən danışır? Demokratiyanın əsas göstəricilərindən biri sayılan fikir, söz azadlığına qarşı çıxır, müstəqil medianın inkişafına mane olur". Çünki AXCP sədri bilir ki, nə dağıdıcı düşərgədə, nə də cəmiyyətdə bir heçdir. Belə olan məqamda Əli Kərimli pandemiya zamanında çıxış yolunu ona qarşı çıxanlara qarşı belə bir ssenari hahücum tapşırığı ilə "varlığını" nümayiş etdirmək istəyir. "Eşşək anqırar tayını tapar" boş yerə deməyiblər... Deyirəm ki Kərimli utanmırmı? Görün ətrafında kimlər var. Mənə yazır məsləhət görürlər ki, bu mundarlarla işin olmasın. Başa düşürəm. Amma bilirsiz niyə paylaşıram? Əli Kərimlinin yan-yörəsində kimlər var, biləsiz deyə. Bunlar hamısı, hər birisi düşük cinayətkarlardır...".

Bəli, bu xəmir hələ çox su aparacaq. Və bu gün AXCP trolları necə davranırlarsa, dünən də elə olub, sabah da bu cür davam edəcək, əlbəttə ki, AXCP düşdüyü iflas burulğanından xilas olmağa macal taparsa...Və bu söyüş və təhqirlər isə hələ çox olacaq. Ta o vaxta qədər ki, zəifliklərini öz dilləri ilə etiraf etmək olacaqlar, yəni süqut edəcəklər. Bunu isə hər şeyi yaddaşına köçürən və yalan danışmayan zaman da göstərəcək.

***Rəfiqə HÜSEYNOVA***

## Müsavatçılar niyə təhqirlərə susurlar?

### *Və ya susmaq razılıq əlamətidir*



AXCP rəyasət heyətinin sonuncu "zoom" toplantısında Müsavat partiyasının rəhbərliyinə qarşı təhqirli ifadələrin işlədilməsi daxili siyasi gündəmin danışılan mövzusuna çevrilib. SİA xəbər verir ki, Əli Kərimlinin də iştirak etdiyi virtual iclasda rəyasət heyətinin üzvü Məmməd İbrahimin və digərlərinin müsavatçıları həqarətli şəkildə ittiham etmələri həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, bu məsələnin arxasında bilavasitə AXCP sədrinin sifarişi dayanıb. Biz qarşı tərəgin - Müsavat partiyasının yetkililəri ilə əlaqə saxlamağa çalışdıq və onların da münasibətlərini öyrənmək istədik. Yalnız Müsavat partiyasının başqan müavini Osman Kazımov rayonda olduğunu bildirərək, Bakıya geri döndükdən sonra müfəssəl açıqlama verəcəyini bildirdi və sadəcə, "gərək cəbhəçilər müsavatçıları təhqir etməzdilər" ifadəsi ilə kifayətlənədi. Müsavat partiyasının başqanı Arif Hacılı, partiyanın icra aparatının rəhbəri Gülağa Aslanlı telefonlara cavab vermədilər.

Mustafa Hacıbəylinin illər əvvəl "Hirsləri soyuyandan sonra Müsavat partiyasına müraciət edəcəklər və biz o zaman bu müraciəti dəyərləndirəcəyik" proqnozu özünü doğrultmadı...

Maraqlı məqamlardan biri isə budur ki, Müsvat başqanın müşaviri, Arif Hacılının qardaşı Mustafa Hacıbəylinin telefon nömrəsinə zəng edərkən o öz səsi ilə olsa belə, bunu inkar etdi və "səhv düşdüyümüzü" bildirdi. Artıq bütün nbunlardan sonra belə bir təəssürat yaranmağa başlayıb ki, müsavatçılar cəbhəçilərin onlara qarşı başlatdıqları söyüş və təhqir kampaniyalarına susqunluqla cavab vermək niyyətindədirlər. Həqarətlərə susmaq isə istər-istəməz belə bir kəlamı xatırladır - susmaq razılıq əlamətidir...

Xatırladaq ki, Müsavat partiyası hələ 2013-cü ildə "Milli Şura"mım sıralarını tərk etdikdən sonra AXCP bu partiyaya qarşı geniş miqyaslı söyüş və təhqir kampaniyasına başlamışdı. Məhz həmin dönəmlərdə də M.Hacıbəyli dmeişdi ki, AXCP Müsavat partiyasına qarşı təbliğat aparmaqda davam edir. "Qoy davam etsinlər. Hirsləri soyuyandan sonra əvvəlki illərdə olduğu kimi yəqin ki yenidən birgə mübarizə üçün Müsavat partiyasına müraciət edəcəklər və biz o zaman bu müraciəti dəyərləndirəcəyik". Lakin göründüyü kimi, hələ bir neçə il əvvəl onun verdiyi proqnozları özünü doğrultmadı və fakt budur ki, Əli Kərimlinin rəhbərliyi ilə onlara qarşı sözügedən lampaniya bütün sürəti ilə davam etməkdəir.

***Rövşən RƏSULOV***

## "AXCP getdikcə özünü daha çox alçaldır"



AXCP İdarə Heyətinin 29 aprel 2020-ci ildə keçirilən videokonfransında Müsavat rəhbərliyi elədə jurnalistlər açıq şəkildə təhqir olunub. Sosial şəbəkələrdə iclasın videosu yayılıb. Toplantıda bir sıra müxalifətçilərə qarşı ağır təhqirlər yer alıb. AXCP idarə heyətini üzvü Məmməd İbrahim çıxışında bildirib ki, indi onları bəlkə də öz sədrləri, Mustafa Hacıbəyli yığıb gətirib: "Hardasa nəsə olacaq. Onlar gördülər ki, məqamdı və düşündülər ki, bütün hamı üstümüzə gəlir, vurmağın tam vaxtıdır. Müsavat elə bildi ki, yenə dirilib qabağa keçəcək. Əslində, belə hadisələr təkrarlanacaq. Hardasa nəsə yazılsa, yenə onlar iştirak edəcək".

AXCP idarə heyətində müxalifətçilərin açıq şəkildə təhqir olunmasına münasibət bildirən AMİP funksioneri Əli Orucov "Səs" qəzetinə açıqlamasında bildirib ki, siyasətçi ilk növbədə üstün keyfiyyətləri və davranışları ilə cəmiyyətdə bir nümunə olmalıdır: "Bəzən siyasətçinin illərlə böyük səy və zəhmət hesabına qazandığı nüfuzu yanlış bir hərəkəti ilə heçə enir. Siyasi rəqabət aparanda da ilk növbədə əxlaqi dəyərlər və etik normalar gözlənilməlidir. Təəssüf ki AXCP və "Milli Şura" bütün əndazələri aşır. Hərə öz səviyyəsini və qabiliyyətini göstərir. Cəmiyyətin özü hər kəsin layiq olduğu qiymətini verir. O ki qaldı Ə.Kərimlinin Müsavatı hədəf seçməsi bu iki partiya olan məsələdir, özləri həll etməlidirlər. Söyüş və təhqir heç kimə heç bir siyasətçiyə və siyasi quruma baş ucalığı gətirmir, əksinə gözdən-könüldən salır. Onsuz da onlar çoxdan özlərini tədric ediblər".

***Gülyana***

## "Əli Kərimlinin çox ciddi psixoloji problemləri var"

"AXCP və onun yarıtmaz funksionerləri hər zaman öz uğursuzluqlarının səbəbini başqa yerlərdə axtarıblar və başları qeybətə, kiminsə arxasınca danışmağa, ittiham eləməyə, nifrinlər püskürməyə o qədər qarışıb ki, siyasətlə məşğul olmaq yadlarından çıxıb. Ona görə də bu gündədirlər, inkişaf edə bilmirlər, videokonfranslarda sərgilədikləri rəzilliklərdən savayı heç nə ilə yadda qalmırlar". Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev deyib. Onun sözlərinə görə, Müsavat AXCP-nin əzəli düşmənidir: "Nəinki Müsavat, elə bütün müxalif partiyalar. Əli Kərimli və onun tayfasının əsas məqsədi, hədəfi həm də müxalifətçiliyi monopoliyada saxlamaqdır. Səbəb isə sadədir: xaricdə müxalifətçi kimi yalnız bunlar tanınsınlar, əsas alternativ kimi yalnız özlərinin adı keçsin. Hərçənd məsələ burasındadır ki, hazırda müxalif cəbhədə ən zəif, resurssuz, adamsız, dəstəksiz qüvvə də elə məhz özləridir. Məlum vəziyyətlərini, durumlarını isə təhqirlə, yalanla, boğazdan yuxarı fikir söyləməklə kompensasiya eləməyə çalışırlar". E.Musayev onu da bildirib ki, video konfranslara baxarkən bir həqiqəti anladım ki, Əli Kərimlinin çox ciddi psixoloji problemləri var: "Düzdür, bu problem həmişə olub. Amma indi məsələ daha ciddidir. Ona görə də AXCP sədri ilk öncə özünü həkimə göstərməli, diaqnozunu müəyyən eləməli, daha sonra danışmalıdır".

***Gülyana***

# Gürcüstanda qıpçak xristian abidələrinin "erməniləşdirilməsi"

***Çariça Tamaranın hakimiyyəti dövründə türk xalqları üçün xarakterik olan at və qoç daş heykəlləri şəklində qəbirüstü abidələr geniş yayılmışdır. Qıpçaqlar pravoslav xristian dinini qəbul etmişdilər. Buna görə də onlar erməni monofizit etiqadını qəbul edə bilməzdilər. Gürcüstanın başqa bölgələrində xristian qəbirüstü abidələrində türk xalqları üçün xarakterik olan geyim və ayaqabısı olan insan təsvirlərinə təsadüf olunmuşdur. "Mahiyyətcə "qızıl əsr" gürcü çarlığını (Qurucu David, III Giorgi və çariça Tamara dövrünü) qarışıq türk-gürcü dövləti hesab edirlər".***

Cənubi Qafqazda türk qıpçaqların müasir nəslinə gəldikdə onlara ait hissəsi Gürcüstanda pravoslav xristian kimi gürcülərlə qovuşmuş (müxtəlif qiymətləndirmələrə görə 20% gürcü familiyası türk mənşəlidir), bir hissəsi geri dönmüş və islama qayıtmışdır. Onların bir hissəsi yaşadıqları yerdə qalmış, oradan müsəlman hökmdarlarının hakimiyyəti altına keçdikdən sonra islamı qəbul etmiş, Azərbaycan xalqının bir hissəsinə çevrilmişlərr. Hətta Qaraqoyunluların hakimiyyəti dövründə də dəfn zamanı at və qoç kökənli və çöl türklərinə məxsus geyim əşyalarının təsviri olan qəbirüstü abidələr qorunub saxlanmışdır. Gürcüstanda türk qıpçaqların nəsilləri Borçalı türkləridir. Əfsanəyə görə onların bir çoxu türk-qıpçaq tayfalarının nəsilləridir.

Firudin Cəlilov yazır:" Xristian qıpçaqlar təkcə Alban elində deyil, Güney Qafqazın bir çox bölgələrində, Anadolunun quzey-doğu bölgələrində və indiki Gürcüstan ərazilərində də vardı. Hətta, Tiflis şəhərinin göbəyində son çağlara qədər Qıpçaq-vəng adlı kilisə sökülüb yerində gürcü kilisəsi tikilənəcən dururdu. Dədə Qorqud eposunda oğuzlar təkcə Alban xristian qıpçaqları ilə deyil, Gürcüstanda xristian qıpçaqlarla da savaşırdı.

Borçalıda, özəlliklə, indi Bolinisi və Dmanisi adlanan bölgələrdə islamaqədər tikilmiş xeyli qıpçaq vəngi vardı. Bunlardan bir neçəsinin adını B.Arveladze qeyd etmişdir: Kəpənəkçi, Şəmşiberdi, Şiştəpə, Kolagir, Güvəc, Qundaxsaz, Kizikilisə, Qarabulax, Xaçın, Kəkliy, Aruxlu, Qaraxu, İncoqlu, Atakişi, Azman, Xaçmağara. Takayşvilinin (1952) qeyd etdiyi Çorox vadisindəki Dördkilisə abidəsini də bu sıraya əlavə etmək olar.

Leonti Mroveli (XI əsr) gürcü qaynaqlarına görə, hələ İskəndərin yürüşündən öncə Kürün yuxarı axarlarında "barbar tayfaları"n (buntük və ya qıpçaq) yaşdıqları haqqında yazmış, başa qaynaqda Gücütan çarı Vaxtang Gorgasalı (V əsr) oset ve qıçqlar nümayəndələrini qəbul etdiyi qeyd olunur. Bu bilgilə anaxronizm də ola bilə, ancaq X əsrdə sonar gücü qaynaqları birbaşa təmasda olduqları "qıpçaq" adlı xalqdan bəhs etməsi gerçək durumu əks etdirir, belə ki, gerçək durumu XII əsrdə bir gürcü yazarıı "komanlar qıpçqlardı" deməsi də aydın göstərir. Kartli tarixində bəhs edən "Kartlis Tsxovreba" qıpçaqlarla bağlı xeyli bəlgələr vardı.

Quzeydə qıpçqların Gürçüstana gəlib yerləşmə tarixi dəqiq bilinməsdə Kuman-qıpçaq boylarının qədim tarixini Monqolus tan da deyil, Ön asiyada axtarmaq gərəkir, onların ilkin miqrasiyasının da doğudan batı yönlərə VIII-X əsrlərdə deyil (bu sonrakı geri dönmələrdir), m.ö. IV-I minillərin müxtə lif çağlarında Ön Asiyadan ayrı-ayrı qıpçaq dil li boyların Azərbaycan üzərindən Orta Asiya və Quzey Qafqaz yönlə rində olması baxışı gündəmə gəlməlidir.

Belə ki, "sirboyları qıpçaqdilli idi" baxışına yol açmaqla kumanqıpçaq tarixinə baxmaq daha önəmlidir, çünki kuman və qıpçaq adları altında bir sıra subetnik - öz adı olan boylar olmuşdur. Türk etnonimika qaydalarına uyğun siraketn oniminin sır boy adından yaranmışsa (sir-ak), onda batıya ilk qayıdan qıpçaqdilli siraklar Sırdəryaya adını verən, göytürk yazılarında "sır-budun, türk-sır budun" deyimlərində adı keçən sir boyu ilə bağlıdır. Alanlarla birlikdə Xəzərin quzeyilə I əsrdə Quzey Qafqaz üzərindən Azərbaycana gələn sirakların bir bölümü Kürün solundakı Qarayazıda yerləşdi, bura Sirak çölü adlandı, sonra burada (Qardabanın Lal kəndində) 628-ci il olayında adı keçən xristian türklərin "Metseke-vəng" kilisəsi ortaya çıxır. Sirakların bir bölümü də Arpa (Axur yan) çayı bölgələrində oturdu, bura da Sirak-yurdu, Sirakene adlandı və burada salınan bir qəsəbəyə Sirak-avan (Şirakavan) adı verildi. Bu Sirak elindəki Qıpçaq adlı kəndə yaxın Qıpçaq-vəng monastırındakı bir yazıda da "Kıp çak Kubasar" və oğulların adı keçir.

*Leonti Mroveli (XI əsr) gürcü qaynaqlarına görə, hələ İskəndərin yürüşündən öncə Kürün yuxarı axarlarında "barbar tayfaları"n (buntük və ya qıpçaq) yaşdıqları haqqında yazmış, başa qaynaqda Gücütan çarı Vaxtang Gorgasalı (V əsr) oset ve qıçqlar nümayəndələrini qəbul etdiyi qeyd olunur. Bu bilgilə anaxronizm də ola bilə, ancaq X əsrdə sonar gücü qaynaqlarıı birbaşa təmasda olduqları "qıpçaq" adlı xalqdan bəhs etməsi gerçək durumu əks etdirir, belə ki, gerçək durumu XII əsrdə bir gürcü yazarıı "komanlar qıpçqlardı" deməsi də aydın göstərir. Kartli tarixində bəhs edən "Kartlis Tsxovreba" qıpçaqlarla bağlı xeyli bəlgələr vardı.*

Göründüyü kimi, qıpçaqdilli sirak boyu göytürk yazıların da adı keçən sir boyunun qıpçaqdilli olması baxışına daha qədim əlavə bəlgələr verə bilir. Ona görə də, kuman qıpçaq boylarının daha qədim On Asiyadakı tarixini araşdırmaq çox önəmlidir. Təkcə Bizans kilisəsi deyil, Roma Katolik kilisəsi də xristian türklərin yaşadıqları bölgə xalqları içində asimiliyasiya olunmasına çalışırdı. Bunun üçün misionerlik yolu ilə türklərin arasında təbliğat aparır, xristian türkəri orduya cəlb edib yüksək rütbələr verirdilər. Malazgird savaşında (1071) Bizans ordusunun içində xeyli türk əsgəri vardı, ancaq onlar Alp Arslanın tərəfinə keçib bizanslılara qarşı vuruşdular.

Bugün doğu qıpçaq (qazax, noqay, qaraqalpaq, qırğız və b.) dilləriylə quzey və batı qıpçaq (tatar, başqord, qaraçay-balkar, kumuq, karaim) dilləri arasında müəyyən fərqlər vardır, ancaq qıpçaqların xristian mətnlərinin dili oğuz-qıpçaq sintezilə onlardan kəskin fərqlənir.

Xristian qıpçaq mətnlərində türkməncə sözlərinə nadir hal da rast gəlmək olur, daha çox kıpçak tili, bizim til, tatarça deyimləri işlənir. Burada olan sözlərin çoxu mənasına görə Azərbaycan danışıq dilində işlənən bugünkü variantı ilə eynidir. Metal və heyvan adları: altun, temir, kümüş, aslan, börü, sığır, inek, xoyun, it, eşək, tonuz; Qıpçaq sözləri nitq hissələrinə görə də oğuz dillərindən o qədər də fərqlənmir: əvəzliklər - men, sen, ol, biz, siz, öz, bu; saylar - toxuz, beş, üç, tümən; Ən çox işlə nən feillər, örnəyin: anla-, ayır-, ax-, bax-, öl-, iç-, biç-, bük-, bil-, bişir-, çıx-, et-, ez-, kes-, gülümsün-, oyna-, sanç-, sağalt-, sor-, soy-, tanı-, toğ-, toldur-, tök-, tökül-, tüş-, tik-, üz-, yat-, unut-, uyut-, uyu-, yay-, yaz-. Eyni durumu digər sözlər də əks etdirir: ağaç, ağu, ağır, açıx yer, açközlü, ant, ayax, baş, bilək, bilik, biliksiz, boş, butax, bütün, buyrux, çiçək, erkək, boşlux, burun, könül, ölümsüz, sonra, süt, teniz, ortax, tez, tolu, tişi, töşək, tütün, uzunlux, üçün, yük, yanax, yanlış, yumrux, yoldaş, yazıx, yuxu, kün toğuşu, kün batışı. Bəzi qıpçaq sözlərisə daha qədim for ma və anlamı ilə diqqəti çəkir: körklü - gözəl, törə yeri - məhkəmə, tenri - tanrı, uçmax - cənnət, oltur - otur-, keltir - gətir-, suv - su, ilgəri - irəli, çatlavuq - fındıq, ayt - söylə-, alğış - dua, salkun - hava.

Xristian toplumda şox önəmli sayılan "Törə Bitigi" kimi xristian kumanqıpçaq dilinə aid yazılmış "Codex Cumanicus" əsəri də önəmlidir. Adətən, bu bitiyin yazılma tarixinin başlanğıcını birinci səhifədə qeyd olunmuş 1303 tarixlə bağlayırlar, A.N.Samoyloviç isə əl yaz manın 1294-dən başlandığını, ilkin bölü mün daha öncəyə aid olduğunu, ancaq üzərində bir neçə katibin əlavələr etdiyi ni, 1303-dən də üzü köçü rülməyə başlandığını qeyd edir.

Klaprot yazdığı məqalə ilə (1828) bitiyin elmi dairələrdə tanınmasına və üzərində elmi araş dırmalar aparılmasına səbəb oldu, ancaq ilk mükəmməl araşdırmanı 1880-də macar alimi Geza Kuun uğurla başa vurub, geniş şərhlə bu kitabı nəşr etdi. Burada xristian dini mətnlər də yer almışdır.

**Vahid Ömərov,**
***AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

12 iyun

# Səs

Son səhifə

## Hollivud ulduzunun evliliyini Bred Pittin məktubları məhv edib



***Amerikalı aktrisa Cennifer Enistonun aktyor və ssenarist Castin Teru ilə evliliyinin dağılmasının bir səbəbi də Bred Pittin sevgi məktubları olub. Bu barədə "Mirror" öz mənbələrinə istinadla xəbər verib. Xatırladaq ki, Cennifer Enistonla Bred Pitt 2000-2005-ci illərdə evli olublar. Lakin Pittlə Ancelina Colinin sevgi macərasından sonra onların evliliyi sona çatıb.***

Məlumata görə, bundan sonra aktrisa ağır günlər keçirib və yalnız 2015-ci ildə o, ikinci dəfə ailə qurmaq qərarına gəlib. Ancaq bu evliliyin də ömrü qısa olub.

İnsayderlərin məlumatına görə, Teru hər zaman Bred Pittlə müqayisə olunmaqdan bezib. Həyat yoldaşının Bred Pittin məktublarını hələ də saxladığını öyrənəndə isə artıq səbri bitib. O, bu məktubların arvadının keçmiş ərinə hələ də laqeyd münasibətdə olmaması ilə əlaqələndirib. Aktrisanın özü isəməktubları hələ də niyə atmadığını izah edə bilməyib. Bundan sonra onların münasibətləri yox səviyyəsinə düşüb. Bundan başqa yaşayış yeri barədə kompromisə getməmək də onların evliliyinin bitməsinə səbəb olub: Aktyor Nyu-Yorkda, xanımı isə Los-Ancelesdə yaşamaq istəyib. Nəhayət, 2018-ci ildə Eniston evliliklərinin bitdiyini elan edib.

## FİFA-nın yeni reytinqi: Millimiz neçəncidir?

***FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Qurumun saytında yer alan məlumatda deyilir ki, Azərbaycan yığmasının mövqeyi dəyişməyib. Komandamız 1177 xalla 114-cü yerdə qalıb.***

Koronavirus pandemiyası səbəbindən yarışlar dayandığı üçün digər yığmaların mövqelərində də dəyişiklik olmayıb. Qeyd edək ki, siyahıya 1765 xalla Belçika başçılıq edir. Fransa 1733 xalla 2-ci, Braziliya 1712 xalla 3-cüdür.



## Avtobuslarda kondisionerlər işə salınacaq

"Nazirlər Kabineti yanında Operativ Qərargahın tibbi bölməsi TƏBI?B-lə aparılan mu?zakirələrin nəticəsi olaraq avtobuslarda sərinləndirmə sistemlərinin işə salınmasına qərar verilib". Bu sözləri SİA-ya açıqlamasında Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mais Ağayev deyib. Belə ki, o, bəzi marşrutlarda sürücülərin sərinlədirmə (kondisioner) sistemlərini işə salmaqdan imtina etməsinə münasibət bildirərkən deyib ki, bu qərar yenicə qəbul edilib: "Sürücü düz məruzə edib. Sərinləndirmə sistemlərinin işə salınması qərarı yenicə qəbul edilib. Sərinləndirmə sistemlərinin işlədilməsi mütəxəssislərin tövsiyə etdiyi qaydalar nəzərə alınmaqla həyata keçiriləcək. Bununla bağlı daşıyıcı şirkətlərə də müvafiq tapşırıqlar verilib və mərhələ ilə sərinləndirmə sistemləri is?ə salınması təmin olunacaq. Bir daha sərnişinlərimizə göstərdikləri anlayış üçün təşəkkür edirik. Həmçinin, bildiririk ki, nəqliyyat mübadilə mərkəzlərində, dayanacaqlarda və avtobuslarda maskadan istifadə qaydalarına mütləq şəkildə əməl olunmalıdır".



## ABŞ-ın dövlət borcu rekord həddə çatdı: 26 trilyon dollar!

***ABŞ-ın dövlət borcu 26 trilyon dollara çataraq yeni rekord müəyyən edib. SİA CBS telekanalına istinadla xəbər verir ki, bu barədə ABŞ Maliyyə Nazirliyi məlumat yayıb. Qurumun məlumatına əsasən, Donald Trampın prezidentliyi dövründə ölkənin dövlət borcu 6 trilyon dollar artıb. Nazirlik bunu koronavirusun yayılmasına qarşı mübarizə çərçivəsində hakimiyyətin atdığı addımlarla əlaqələndirir.***

Birləşmiş Ştatların sabiq Maliyyə naziri Henri Polsonun fikrincə, dövlət borcunun nəzarətsiz artımı və büdcə defisiti dünyanın əsas valyuta ehtiyatı qismində çıxış edən dolların üstünlüyü itirilməsinə səbəb olacaq.



## Teymur Mustafayev vəfat etdi



Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Axşam.az xəbər verir ki, Xalq artisti Teymur Mustafayev vəfat edib. Teymur əmi kimi tanınan xanəndə 82 yaşında dünyasını dəyişib. Qeyd edək ki, Teymur Mustafayev 1939-cu il aprelin 10-da Cəlilabadda anadan olub. O, əmək fəaliyyətinə 1959-cu ildə başlamış və 60 il ərzində Azərbaycan Dövlət Filarmoniyasında, "Azkonsert" Birliyində, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində müğənni kimi öz sənəti ilə xalqa xidmət edib. Tanınmış sənətkarlarımızın ifaçılıq ənənələrini ləyaqətlə qoruyub yaşadan Teymur Mustafayev eyni zamanda, özünəməxsus ifa üslubu ilə milli musiqi sənətimizi daha da inkişaf etdirib.

Görkəmli sənətkar 1982-ci ildə milli mədəniyyətimizin inkişafında uğurlarına görə Əməkdar artist, 2005-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. O, Prezident təqaüdçüsü idi.

## Bakıda maşın qaçıran şəxs saxlanıldı

Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən paytaxt sakini E.Gərəkməzli saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Səbail RPİ-nin 9-cu Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini K.Behbudov iyunun 10-da rayon ərazisindən "Opel" markalı avtomobilinin qaçırıldığını bildirib. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobil həmin gün Yasamal rayonu ərazisində tapılıb. Nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən paytaxt sakini E.Gərəkməzli polis əməkdaşları tərəfindən saxlanılmışdır. Araşdırma aparılır.

## Keçmiş məhkum narkotik üstündə tutuldu



Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Novxanı qəsəbə sakini T.Abuzərov saxlanılıb. SİA-ya Daxili İşlər Nazirliyindən verilən xəbərə görə, Abşeron RPİ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Novxanı qəsəbə sakini, əvvəllər məhkum olunmuş T.Abuzərov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 460 qram marixuana aşkar edilərək götürülüb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**